

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 26 (24.512)

11 iyul 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# 14 iyuldan başlanan tarix:

## rifaha, quruculuğa, müstəqilliyə aparan yol



### Prezident İlham ƏLİYEV:

***"Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur... Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir."***

Təqvimdə elə günlər var ki, illər keçsə, qərinələr ötsə də, mahiyyətini itirmir, əksinə, məsafə artdıqca məzmun daha aydın görünür. Sovet hakimiyyətinin "qardaşlıq", "bütün ölkələrin proletiarları birləşin" şüarı altında, əslində, məhv olan dəyərlər, milli kimlik məsələləri idi. Buna zamanında üsyan edənlər susdurulmuş, repressiyanın qurbanlarına çevrilmişlər. Tarix öz dolaylarında hər zaman lider yetişdirmir. Azərbaycanın taleyi onda gətirmişdi ki, sovetlərin ölkənin dilini, dinini işğal etdiyi, dəyərlərinə qənim kəsildiyi bir dövrdə Heydər Əliyev kimi güclü lider hakimiyyətə gəldi. Beləcə, 14 iyul 1969-cu ildən başlanan bu yol xalqı rifaha, işıqlı gələcəyə çıxardı. Bu tarix Azərbaycanın xilasının, özümüzə qayıdışın birinci mərhələsi kimi xarakterizə olunur və hər il 14 iyul tarixi xalqına, vətəninə bağlı şəxsiyyətin gənc və gələcək nəsillərə örnək misilsiz xidmətləri xatırlanır, ehtiramla yad edilir.

1969-cu il iyulun 14-də keçirilmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. Heydər Əliyev 22 il Azərbaycan Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olmuş, 1974-79-cu illərdə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsinə təyin edilmişdir. Daim xalqının yanında olan, vətəninin istiqbalını düşünən Heydər Əliyevin qarşısında mühüm vəzifələr dayanırdı: böhrana sürüklənən və həmin dövrdə müttəfiq respublikalardan geridə qalan Azərbaycanı SSRİ rəhbərliyinin antimilli siyasətinə rəğmən aydınlığa çıxarmaq, milli kadrlar yetişdirmək, infrastrukturu təkmilləşdirmək, iqtisadiyyatı gücləndirmək.

Səhifə ⇨ 2

# 14 iyuldan başlanan tarix:

## rifaha, quruculuğa, müstəqilliyə aparan yol



*(əvvəli 1-ci səhifədə)*

### Böhrandan güclü iqtisadiyyata

Güclü iradəsi və qətiyyəti ilə bütün ideoloji-siyasi maneələrə sinə gərərək milli inkişaf konsepsiyasını əldə rəhbər tutan Heydər Əliyev məqsədinə doğru irəlilədikcə nəticələr ortaya çıxırdı. Belə ki, 1969-85-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istifadəyə verildi, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olundu. Yüzlərlə məktəb, klub, xəstəxana, istirahət evləri tikildi.

***"Dünya, ümumiyyətlə, quruculuqla, tikib-yaratmaqla yaşayıb, inkişaf edib"***, – deyən Heydər Əliyevin gərgin əməyi nəticəsində Bakının ətrafında yeni mikrorayonlar, yeni yaşayış massivləri salındı. Əvvəlki dövrdə Azərbaycanda cəmi 37 şəhərin Baş planı mövcud olduğu halda, bu dövrdə 60 şəhərin və bir sıra şəhərtipli qəsəbələrin Baş planları işləndi. Gəncədəki Yeni Gəncə, Naxçıvandakı Yeni Naxçıvan mikrorayonları, Sumqayıtdakı 13-cü, 17-ci mikrorayonlar və başqaları memarlıq və kompozisiya həllinə görə bu dövrün ən uğurlu yaşayış massivləri hesab edilir.

1983-cü ildə Bakı-Qroznı neft kəmərinin, 1985-ci ildə Dərin Dəniz Özülləri zavodunun, Bakıda "Ulduz" Elektrik Cihazqayırma, Sumqayıtda Məişət kompressorları zavodlarının, 1981-84-cü illərdə Şəmkir Su Elektrik Stansiyasının və digər sənaye obyektlərinin tikilib istifadəyə verilməsi ölkədə əhalinin rifahının yaxşılaşmasına, məşğulluğun təmin olunmasına ciddi təsir göstərdi. Həmin dövrdə sənayedə əmək məhsuldarlığı 2,1 dəfə artmış, 581 adda yenitipli maşın, avadanlıq və cihaz nümunələri yaradılmışdır. Beləliklə, Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilmiş, iqtisadiyyat güclənmişdir. Sosial-iqtisadi və digər sahələrdə keçmiş SSRİ rəhbərliyi səviyyəsində Azərbaycanın inkişafını təmin edəcək əlverişli qərarlar qəbul olunmuş, bütün sahələrdə uzunmüddətli və sistemli proqramların icrasına, iqtisadiyyata yeni texnologiyaların uğurla tətbiqinə başlanmışdır.

### Milli məfkurə uğrunda

Ömrünü xalqının rifahına həsr edən böyük şəxsiyyəti düşündürən əsas məsələlərdən biri də milli kadrların hazırlanması idi. Gənclərin yüksək səviyyədə təhsil alması, ölkəsinə peşəkar kadr kimi formalaşması üçün 10 mindən çox azərbaycanlı Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına göndərildi. Həmin dövrdə böyük cəsarət tələb edən və bu sahədə ciddi çatışmazlıq müşahidə olunan milli zabit kadrlarının yetişdirilməsi idi. Təzyiqlə üzləşməsinə baxmayaraq, 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Təmayüllü Məktəbin fəaliyyətə başlaması ilə gələcək Milli Ordunun ilkin bazasını yaratmış oldu. Ötən əsrin 70-ci illərində respublikanın iqtisadi, ictimai-siyasi və mədəni ideoloji həyatında böyük dönüş yaradan Heydər Əliyev milli kimliyin əsas sütunlarından olan ana dilinin qorunması məsələsinə də ciddi fikir verirdi. Böyük şəxsiyyətin prinsipial mövqeyi, səyi nəticəsində keçmiş SSRİ-nin 1978-ci ildə qəbul edilmiş yeni Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu.

1981-ci ildə "Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Qərarın qəbul edilməsi bu böyük şəxsiyyətin sovet hakimiyyəti dövründə maddi-mədəni irsimizə vətənpərvər yanaşmasını əks etdirən mühüm dövlət sənədi idi. Həmin illərdə Azərbaycanda, eləcə də Naxçıvanda muzeylər şəbəkəsinin genişlənməsi, Naxçıvanda Qarabağlar türbəsinin, Qusarda Həzrə türbəsinin, Şamaxı Cümə məscidinin təmir-bərpa işləri milli-mənəvi dəyərlərimizə həssas yanaşmanın bariz göstərici idi. 1977-ci ildə İçərişəhərin, Şuşa, Şəki və Ordubadın qoruq elan olunması bu siyasətin davamlı xarakter aldığını göstərir.

### Müstəqil Azərbaycan naminə

1988-ci ildən ölkəmizdə başlanan proseslər, həmin dövrdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi və biganəliyi, iqtisadiyyatın çökməsi, böhran vəziyyətinin yaranması və nəhayət, Qanlı Yanvar hadisələrinin törədilməsi ilə nəticələndi. Xalqın taleyinə biganə qalmayan Heydər Əliyev 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edir. Qarabağda yaranmış münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ildə Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk edir. Mövqeyinə görə bir sıra çətinliklərlə üzləşən dahi şəxsiyyət 1990-cı il iyulun 20-si Bakıya, 22-si Naxçıvana gəlir. Blokadada olan Naxçıvan öz böyük oğlunu sevgi ilə qarşılayır. Heydər Əliyevin gəlişi Naxçıvanı işğal təhlükəsindən xilas edir. Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Ulu Öndərin qayıdışı Naxçıvanın taleyində həlledici məqam olur. Gəlişindən qısa müddət sonra sentyabrın 30-da parlament seçkilərində Ümummilli Lider Heydər Əliyevin namizədliyi irəli sürülür. Nehrəm seçki dairəsindən Azərbaycan, 2 nömrəli seçki dairəsindən isə Naxçıvan parlamentinə deputat seçilir. Dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə ilk sessiyası keçirilir. Azərbaycanın müstəqilliyinə hesablanmış tarixi qərarlar qəbul olunur. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarılır. Milli dövlətçiliyimizin dirçəlişi istiqamətində atılan növbəti addım üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklifin irəli sürülməsi olur. Bu, Ulu Öndərin 1969-cu ildə ölkəyə rəhbərlik etdiyi dövrdən qarşısına qoyduğu ən böyük amalı, müqəddəs missiyası idi. Dahi rəhbərin çıraq işığında qəbul etdiyi qərarlar Azərbaycanı müstəqilliyə aparan yolda mayak olur.

### Qurtuluşa gedən yol

Naxçıvana və naxçıvanlılara dayaq olan Ulu Öndərə paytaxtda daha çox ehtiyac duyulurdu. Ölkə böhran vəziyyətinə düşmüş, torpaqların 20 faizi işğal olunmuş, vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir zamanda dahi rəhbər Heydər Əliyev xalqın təkidli tələbi ilə paytaxta qayıdır. 1993-cü ilin 15 iyunu xalqın, torpağın qurtuluş tarixi kimi təqvimə düşür. Ulu Öndər ona göstərilən etimadı tez bir zamanda doğruldur. Onun müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyulur, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas olur. Ordu quruculuğunu və iqtisadiyyatın dirçəldilməsini diqqətdə saxlayan dahi şəxsiyyət müstəqil dövlətin dayaqlarını bərkidir. Əldə olunan sabitlik və dinamik inkişaf digər sahələrə də sirayət edir. Mühüm qərarlar qəbul olunur. Azərbaycanın haqq səsi beynəlxalq tribunalardan eşidilir. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsasını qoyur. Ulu Öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazılır. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf yoluna qədəm qoyur.

### "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"

Ulu Öndər xalqı, Vətəni qarşısında öz misilsiz xidmətləri, yorulmaz fəaliyyəti ilə hər zaman gənclərə örnək oldu. Özündən sonra böyük bir vətənpərvərlik və dövlətçilik məktəbi miras qoydu. Dahi şəxsiyyətin dövlətçilik məktəbində yetişən ölkə başçısı İlham Əliyevin qətiyyəti, prinsipiallığı sayəsində Azərbaycan 2003-cü ildən özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ulu Öndərin vəsiyyətini sədaqətlə reallaşdıran, ideya-siyasi kursunu əzmlə davam etdirən ölkə başçısı xalqın on illərlə arzusunda olduğu torpaqları – Qarabağı geri qaytardı. Dahi rəhbərin vətənpərvərlik məktəbinin məzunları böyük şücaət göstərərək 30 il həsrətində olduğumuz torpaqlarda üçrəngli bayrağımızı ucaltdılar. O məzunların bir qismi məhz Ulu Öndərin 1971-ci ildə təməlini qoyduğu C.Naxçıvanski adına məktəbin məzunları idi. Bu gün ölkə başçısının rəhbərliyi ilə azad olunmuş torpaqlarda "Böyük Qayıdış" proqramı uğurla həyata keçirilir. Doğma yurdlarına qayıdan insanlar qurur, yaradır, həyat yenidən canlanır. Bu isə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik siyasətinin və milli həmrəylik ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin parlaq təzahürüdür.

Məhz buna görə də hər bir azərbaycanlı öz müstəqil, güclü və qalib dövlətinin vətəndaşı olmaqdan haqlı qürur duyur.

**Ruhiyyə RƏSULOVA**

# Etimadın və qələbənin siyasi təməli



## Prezident İlham ƏLİYEV:

*“Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.”*

### Qalib Azərbaycanın uğur yolu, xalq etimadının qazandırdığı uğurlar

Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən 2026-cı ilin birinci yarısında keçirilən ictimai rəy sorğusu Prezident İlham Əliyevin fəaliyyətinə ictimai etimadın yüksək olduğunu bir daha göstərdi. Sorğunun nəticələrinə əsasən Prezident İlham Əliyevə respondentlərin etimad səviyyəsi, ümumilikdə, 87,7 faiz təşkil edir. Bu göstərici ölkədə hər 10 nəfərdən, təxminən, 9-nun dövlət başçısına etimad göstərdiyini təsdiqləyir. Respondentlərin 93,6 faizi isə Prezidentin fəaliyyətini müsbət qiymətləndirir.

Bu rəqəmlər Ulu Öndər Heydər Əliyevin 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində xalqa müraciətini yada salır: ***“İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.*** Bu tarixi müraciət təkcə siyasi vəsiyyət deyil, həm də uzaqgörən dövlətçilik baxışının ifadəsi idi. Sonrakı illərdə baş verən hadisələr, xüsusilə Azərbaycanın tarixi zəfəri həmin uzaqgörənliyin nə qədər düzgün olduğunu təsdiqlədi. Azərbaycan xalqı 2003-cü ildə etdiyi tarixi seçimin uğurlu nəticəsini bu gün də görməkdədir. Prezident İlham Əliyevin ötən illər ərzində həyata keçirdiyi siyasət göstərdi ki, milli maraqların qorunması, dövlətçiliyin möhkəmləndirilməsi və ümummilli məqsədlərə nail olunması baxımından Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Vətən müharibəsinin başlamasından iki il öncə 2018-ci ildə dövlətimizin başçısı andiçmə mərasimində bu tarixi həqiqəti bir daha vurğuladı: ***“Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm... Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur”.***

### Qətiyyətli siyasətin uğurlu nəticələri

Hər bir azərbaycanlı ona inandı, onunla bir yola çıxdı – Ulu Öndərin bizim üçün müəyyənləşdirdiyi milli inkişaf və işıqlı gələcək yoluna. Azərbaycan xalqı dövlət başçısı ilə birləşib daim sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi.

Yüksək ictimai etimad məhz bu siyasətin nəticəsidir. Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi altında sülhün, sabitliyin, inkişafın və quruculuğun tərəfdarı olduğunu dəfələrlə nümayiş etdirib.

Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi ilk gündən torpaqlarımızın işğaldan azad olunmasını əsas milli prioritet kimi müəyyənləşdirdi. Dövlət başçısı çıxışlarında güclü ordunun formalaşdırılması və milli birliyin təmin edilməsini qarşıda duran başlıca vəzifələr kimi təqdim edirdi.

Dövlət başçısı bu mövqeyini hələ ilk illərdən qətiyyətlə ifadə edirdi: ***“Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir”.***

Ulu Öndər Əliyevin uzaqgörənliyi, Prezident İlham Əliyevin polad iradəsi 2020-ci il noyabrın 10-da məntiqi nəticəsinə qovuşdu. Həmin gün Ermənistan təslim olduğunu rəsmən elan etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına son qoydu. Bununla Azərbaycan qalib dövlət kimi yeni inkişaf mərhələsinə qədəm qoydu.

### Cənubi Qafqazda lider, dünyada isə söz sahibi

Qazanılan zəfər uzun illər ərzində davam edən hazırlıq işlərinin, habelə dövlətin qüdrətinin artırılması istiqamətində atılan addımların nəticəsidir. Ərazi bütövlüyümüzün bərpası Prezident İlham Əliyevin siyasi fəaliyyətinin ən böyük uğurlarından biri olmaqla yanaşı, xalqın milli birliyinin də parlaq təzahürünə çevrildi. Ölkəmiz Cənubi Qafqazda lider, dünyada isə söz sahibi kimi qəbul olunur. Prezident İlham Əliyevin təkmil və uzaqgörən inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi uğurlara nail oldu, dünyadakı nüfuzunu daha da artırdı. Regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən Azərbaycan yeni-yeni hədəflərin gerçəkləşməsi istiqamətində inamlı addımlar atır. Ölkəmiz artıq söz sahibi bir ölkə kimi dünya səviyyəli tədbirlərə ev sahibliyi etməklə bərabər illərdir, öz evinə həsrət qalan sakinlərini yurduna, yuvasına qaytarır. Böyük Qayıdışın əhatəsi gündən-günə artır. Vaxtilə düşmənin caynağında xarabaya dönən yurd-yuvamız cənnətə çevrilir. Dövlət başçısı ilk dəfə prezident seçiləndə xalqa verdiyi bütün vədləri yerinə yetirir və ***“Biz birlikdə güclüyük”*** prinsipinə əsaslanmaqla dövlətimizi daha da gücləndirir. Prezident İlham Əliyevin dövlət başçısı postunda fəaliyyətinin təhlili onu göstərir ki, o həmişə cəmiyyətin, dövlətin maraqlarını əsas tutaraq siyasi məharəti, yüksək mənəvi keyfiyyətləri, kommunikasiya bacarığı sayəsində sadə insanlardan tutmuş dünyanın nüfuzlu şəxsiyyətlərinə kimi hər kəsin rəğbətini və hörmətini qazanır. O, Azərbaycanın dünyadakı səsi, bütün dünya azərbaycanlılarının hüquqlarının və təhlükəsizliyinin qarantıdır. O, keçmiş ənənələr üzərində müasir ölkəmizin yeni reallıqlarını yaradıb, güclü və müstəqil Azərbaycan naminə çalışır. Onun əsas istinad nöqtəsi Azərbaycan xalqının ən böyük nailiyyəti olan müstəqillikdir! Ulu Öndərin layiqli davamçısının liderlik obrazını milli-mənəvi dəyərlərə bağlılıq, müstəqillik ideyalarına sadiqlik, Azərbaycançılıq məfkurəsinə ali münasibət, müstəqillik, Vətən və xalq sevgisi tamamlayır.

### Ən güclü indikatorlardan biri vətəndaşların seçki davranışlarıdır

Etimad və dəstəyin yüksək olduğunu təsdiq edən ən güclü indikatorlardan biri vətəndaşların seçki davranışlarıdır. Ümummilli Liderin yüksək etimadını doğruldan İlham Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə Azərbaycanı dünyaya tanıtdı. Dahi şəxsiyyətin layiqli davamçısının müdrik rəhbərliyi ilə görülən işləri dünyada yaşayan soydaşlarımız da dərk edir, sülhün və əmin-amanlığın hökm sürdüyü məkana çevrilən, iqtisadi göstəricilərinə görə daim qüdrətlənən Azərbaycan dövləti ilə fəxr edirlər. Azərbaycan dövlətinin sərhədləri daxilində yaşayan insanlar gündən-günə inkişaf edən ölkənin vətəndaşları olaraq gələcəyə ümidlə baxır, verdiyi hər sözü yerinə yetirən ölkə başçısına sədaqət nümayiş etdirirlər. Azərbaycan vətəndaşları seçkilərdə nümayiş etdirdikləri fəallıq və verdikləri səslə Prezident İlham Əliyevin siyasi kursuna dəstəklərini dəfələrlə ifadə ediblər. Məhz bunun nəticəsidir ki, 2003-cü ildən keçirilən bütün prezident seçkilərində xalqın seçimi İlham Əliyev olub.

2003-cü ildə prezident seçkilərində seçicilərin 76,84 faizi İlham Əliyevə səs vermişdisə, sonrakı seçkilərdə bu göstərici ardıcıl şəkildə yüksəlib. 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində isə O, seçicilərin 92,12 faizini qazanaraq zəfər seçkisinin qalibi olub. Bu bir xalqın təkcə öz Prezidentinə yox, həm də Azərbaycanı canından çox sevən Ümummilli Liderinə sədaqətinin ifadəsidir.

Bu gün Azərbaycan ona görə güclü dövlətdir ki, onun İlham Əliyev kimi Lideri var. Dövlətimizin başçısı isə ona görə alternativsiz liderdir ki, Onun arxasında yenilməz gücü – xalqı var. Müstəqil Azərbaycanın uğurlarının təməlində dayanan əsas amil məhz Prezident İlham Əliyevin xalqına sevgisi, Vətəninə məhəbbəti, Ulu Öndər siyasətinə sədaqətidir.

Ramiyə ƏKBƏROVA

# Ali Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib



İyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının növbəti iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ – ikinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Mübariz Bayramov məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Qanun layihəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov çıxış etdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.



Gündəlikdə duran ikinci məsələ – ikinci oxunuşda olan "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihəsi ilə bağlı Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb. Ardınca qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Gündəlikdə duran sonuncu məsələ – ikinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında" Naxçıvan Muxtar Respublikasının qanun layihəsi ilə bağlı Hüquq siyasəti komitəsinin sədri tərəfindən məlumat verilib, komitənin rəyi diqqətə çatdırılıb.

Qanun layihəsi ilə bağlı deputatlardan Əziz Qasımov və Emin Şıxəliyev çıxış ediblər.

Ardınca qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Bununla da Ali Məclisin növbədənkənar sessiyasının növbəti iclası başa çatıb.

# Ali Məclisin İqtisadi siyasət komitəsinin iclası keçirilib



İyulun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

Komitə sədri Mübariz Bayramov gündəlikdə duran məsələnin ikinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin müzakirəsi olduğunu bildirib.

İclasda Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Elvin Əlimərdanov və Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəis müavini Əhməd Qənbərov qanun layihəsi ilə bağlı məlumat veriblər.

Gündəlikdə duran məsələ ətrafında müzakirələr aparıldıqdan sonra komitənin rəyi oxunub, "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının qanun layihəsi Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunub.

Qeyd edək ki, iclasda Ali Məclisin komitə sədrləri və müavinləri, Ali Məclisin və Nazirlər Kabineti aparatlarının nümayəndələri də iştirak ediblər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ulu Öndərin deputat vəkilliyindən Ağsaqqallar Şurasına uzanan mənalı ömür yolu

Elə qapılar var ki, daim üzünə açıq olduğu kimi, sahibinin səmimiyyətini, xeyirxahlığını və insanlara olan sevgisini də əks etdirir. Naxçıvan Ağsaqqallar Şurasının sədri, bir zamanlar Ulu Öndər Heydər Əliyevin deputat seçkilərində etibarlı vəkili olmuş Məmməd Məmmədovun iş otağının qapısı da məhz belə qapılardandır. Bu dəfə onunla böyük həyəcan və dərin ehtiram hissi ilə həmsöhbət oldum. Söhbətimiz uzandıqca zamanın necə keçdiyini hiss etmədim. 1943-cü il sentyabrın 15-də dünyaya göz açan Məmməd müəllim ömrünün hər səhifəsini böyük məhəbbət və ləyaqətlə vərəqləyən ziyalılardandır.

Keçdiyi həyat yolundan danışarkən səsində həm qürur, həm də illərin gətirdiyi kövrəklik duyulurdu. Bir vaxtlar 12 min nəfərlik üç kəndin – Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərinin icra nümayəndəsi olub. Bu kəndlərdə onu daha çox "Mamed müəllim" kimi tanıyırlar. İndi təqaüddə olsa da, Naxçıvan Ağsaqqallar Şurasında ictimai əsaslarla fəaliyyətini davam etdirir.

Üç kitabın müəllifi olan Məmməd müəllim hazırda dördüncü kitabını nəşrə hazırlayır. 2011-ci ildə nəşr olunan "1001 suala 1001 cavab" kitabı həmin dövr üçün böyük maraq doğurmuşdu. O illərdə texnologiya bugünkü qədər inkişaf etməmiş, məktəblərdə əsas bilik mənbəyi kitablar idi. Min nüsxə tirajla çap olunan kitab müəllimlər və məktəblilər tərəfindən böyük maraqla qarşılanmış, məktəblər onu birbaşa müəllifdən əldə etmişdilər.

Daha sonra "Dünya mütəfəkkirlərinin hikmətli kəlamları" kitabını ərsəyə gətirir. Müxtəlif dövrlərdə yaşamış mütəfəkkirlərin hikmətli fikirlərini bir topluda cəmləşdirən bu kitab da müəllifin zəhmətinin bəhrəsidir. Rus dilindən tərcümə etdiyi "Təbiət müalicə edir" kitabı isə oxucular tərəfindən maraqla qarşılanıb.

Orta məktəbi cəmi 16 yaşında əla qiymətlərlə bitirən Məmməd müəllim hələ 8 yaşından rus dilində sərbəst danışırdı. 12 yaşından isə əməyin və zəhmətin nə olduğunu anlayaraq həyatın məsuliyyətini erkən



yaşlarından çiyinlərinə götürmüşdü.

Bakıya ali məktəbə qəbul imtahanı verməyə gedəndə ilk iki "dörd", bir "beş" qiyməti alır. Hüquq fakültəsində oxumaq arzusu olsa da, həmin dövrdə tələb olunan üçillik əmək stajı olmadığı üçün bu arzusunu reallaşdıra bilmir. Az sonra hərbi xidmətə yollanır. Yol onu Vətəndən uzaqlara – Sevastopol





şəhərinə aparır.

Dördillik hərbi xidmət dövründə birillik hərbi məktəbi fərqlənmə diplomu ilə bitirir. Komandiri digər əsgərlərə onu nümunə göstərərək deyirmiş: "Utanın! Burada bir azərbaycanlı var, təkcə onun qiymətləri əladır". Xidmətinin son ilində leytenant hərbi rütbəsi alır. Bu, gənc zabit üçün yalnız rütbə deyil, həm də zəhmətinin və bacarığının qiymətləndirilməsi idi.

Ali təhsil aldığı ilk illərdən pedaqoji fəaliyyətə başlayır. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasının maarif naziri Məmməd Bektaşi idi. Qapısını hər zaman insanların üzünə açıq saxlayan bu ziyalının davranışı Məmməd müəllimdə dərin iz buraxır. O da sonralar bu ənənəni davam etdirərək işlədiyi bütün vəzifələrdə iş otağının qapısını insanlara açıq saxlayır.

Nazir əvvəlcə ona:

– Ay bala, üçüncü kursu bitirməmiş səni müəllim işlədə bilmərəm, – deyir.

Lakin sənədlərinə baxdıqdan sonra fikrini dəyişir:

– Bax, az qalsın səhv edəcəkdim.

Beləliklə, Məmməd müəllim universitetin birinci kursundan dərs deməyə başlayır. Dördüncü kursu bitirəndə direktor müavini, beşinci kursu başa vuranda isə artıq məktəb direktoru idi. Həyat qarşısına nə qədər çətinlik çıxarsa da, hər sınaqdan daha da möhkəmlənərək çıxmağı bacarırdı.

1985-1987-ci illərdə Naxçıvan Müəllimlər Təkmilləşdirmə İnstitutunda İbtidai Hərbi Hazırlıq kabinetinin müdiri kimi çalışır, eyni zamanda tarix fənnini tədris edir. 1987-ci ildən 2001-ci ilədək isə həmin dövrdə Cavidabad adlanan Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərini əhatə edən Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışaraq uzun illər insanlara xidmət göstərir.

Müsahibimlə söhbətin ən yaddaqalan məqamları Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələr oldu. Məmməd müəllim həmin günləri böyük ehtiram və xüsusi qürur hissi ilə xatırlayırdı.

1990-cı ildə Ulu Öndər Heydər Əliyev Naxçıvana qayıtdıqdan sonra ölkənin taleyi ilə bağlı məsuliyyətli bir dövr başlanmışdı. Həmin günlərdə bir çoxları məsuliyyətdən çəkinir, baş verən hadisələrə ehtiyatla yanaşırdı. Məmməd Məmmədov isə tərəddüd etmədən 340 nömrəli seçki dairəsindən Ulu Öndərin deputatlığa namizədliyinin irəli sürülməsi prosesində onun etibarlı vəkili kimi fəaliyyət göstərməyə razılıq verir.

Bu barədə danışarkən həmin günləri belə xatırlayır: "Rayona gələnlər sənədlərə baxdılar. Gördülər ki, icra nümayəndələrinin əksəriyyəti müxtəlif peşə sahibləridir, ali təhsilləri yoxdur. Bir qədər sonra mənə zəng etdilər. Dedilər ki, səni Ulu Öndərin vəkili kimi məsləhət görürük. Sən həm ali təhsillisən, həm də bu işi bacaracaqsan".

1990-cı il sentyabrın 26-da ilk görüş baş tutur. Görüş Ulu Öndərin bacısının evində, səmimi və mehriban bir mühitdə keçirilir.

Məmməd müəllim həmin anları belə xatırlayır: "O qədər sual hazırlamışdım ki… Amma onun qarşısında əyləşəndə hazırladıqlarımın hamısını unutdum. Söhbəti, düşüncələri, hadisələrə yanaşması məni valeh etmişdi".

İlk söhbət zamanı Ulu Öndər ondan hansı kənddən olduğunu soruşur.

– Qaraxanbəyli kəndindənəm.

Cavabı eşidən Heydər Əliyev təbəssümlə soruşur:

– Dəmir yolunun altından?

Bu həmin kənddə işlədilən köhnə bir ifadə idi.

Məmməd müəllim həmin an yaşadığı təəccübü bu gün də gizlədə bilmir.

– Düşündüm ki, bu insan bizim kəndin hər daşını, hər yolunu tanıyır. Onun yaddaşı və məlumatlılığı məni heyran etmişdi.

Məmməd Məmmədov sonralar Ulu Öndərlə müxtəlif kəndlərdə keçirilən görüşlərdə iştirak edib, onun insanlarla ünsiyyətinə, hadisələrə yanaşmasına yaxından şahidlik edib.

Bu gün də həmin görüşləri böyük ehtiramla xatırlayaraq deyir: "Onunla bir dəfə söhbət edən hər kəs anlayardı ki, qarşısında son dərəcə zəngin biliyə, güclü yaddaşa və dərin dövlət təfəkkürünə malik böyük şəxsiyyət dayanır".

Məmməd müəllim həmin illəri ömrünün ən dəyərli xatirələri hesab edir. Çünki bu xatirələr təkcə bir insanın həyat yolunun deyil, Azərbaycan dövlətçiliyinin taleyüklü mərhələlərinin canlı yaddaşıdır.

Məmməd Məmmədovun qələmi illər ərzində "Şərq qapısı" qəzetinin səhifələrində dəfələrlə oxucularla görüşüb. Onun publisistik yazıları, araşdırmaları və tarixi mövzulara həsr olunmuş məqalələri qəzetin salnaməsində özünəməxsus yer tutur.

Uzun illər dövlətə və cəmiyyətə göstərdiyi xidmət yüksək qiymətləndirilib. 2023-cü il sentyabrın 13-də Azərbaycan Ağsaqqallar Şurası tərəfindən "Fəxri Ağsaqqal" medalı ilə təltif olunub. Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanına layiq görülüb, həmçinin "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə mükafatlandırılıb. Bu təltiflər onun uzun illər ərzində göstərdiyi səmərəli fəaliyyətə verilən dəyərin ifadəsidir. Ancaq Məmməd müəllimin qazandığı ən böyük mükafat, heç şübhəsiz ki, insanların ona bəslədiyi hörmət və etimaddır.

**Rafiq TƏHMƏZ**

# Dövlət Proqramının prioritetləri –

## Naxçıvanda balıqçılıq və akvakultura sahəsinin inkişafında yeni perspektivlər

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" ölkədə balıqçılıq və akvakultura sektorunun da inkişafında yeni mərhələnin əsasını qoyur. Proqramın başlıca məqsədləri istehsalın artırılması, daxili bazarın keyfiyyətli məhsullarla təminatının gücləndirilməsi, özünütəminetmə səviyyəsinin yüksəldilməsi və ixrac potensialının genişləndirilməsidir.

Dövlət Proqramında balıqçılıq və akvakultura sahəsi üzrə konkret hədəflər müəyyənləşdirilib. Belə ki, 2030-cu ilədək balıq istehsalının 7,7 min tona çatdırılması, ölkənin özünütəminetmə səviyyəsinin yüksəldilməsi və ixrac imkanlarının genişləndirilməsi nəzərdə tutulur. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün qanunvericilik bazasının təkmilləşdirilməsi, dövlət dəstəyi mexanizmlərinin formalaşdırılması, subsidiya və güzəştlərin tətbiqi, balıqartırma fəaliyyətinin genişləndirilməsi, eləcə də müasir istehsal texnologiyalarının tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçiriləcək.

Sənəddə su resurslarından səmərəli istifadə, istehsal və emal zəncirinin gücləndirilməsi, logistika imkanlarının genişləndirilməsi və rəqəmsal həllərin tətbiqi prioritet istiqamətlər kimi müəy-



yən olunub. Bu yanaşma məhsuldarlığın artırılmasına, məhsulun keyfiyyətinin yüksəldilməsinə və sektorun rəqabətqabiliyyətinin gücləndirilməsinə xidmət edəcək. Dövlət Proqramının Naxçıvan Muxtar Respublikasında da uğurla icrası balıqçılıq və akvakultura sahəsinin inkişafı üçün yeni imkanlar açır.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Yusif Əlizadə bildirir ki, Dövlət Proqramının icrası balıqçılıq və akvakultura sahəsində yeni inkişaf mərhələsinin əsasını qoyacaq. Müasir texnologiyaların tətbiqi, istehsal güclərinin artırılması və daxili bazarın keyfiyyətli balıq məhsulları ilə təminatının yaxşılaşdırılması istiqamətində nəzərdə tutulan tədbirlər bu sahədə səmərəliliyin yüksəlməsinə, rəqabət qabiliyyətinin artmasına və ərzaq təhlükəsizliyinin daha da möhkəmlənməsinə xidmət edəcək.

Yusif Əlizadənin sözlərinə görə, Dövlət Proqramında balıqçılıq və akvakultura ilə bağlı bir sıra mühüm istiqamətlər müəyyən edilib. Bu istiqamətlərə balıq



fonduna nəzarət və monitorinq mexanizmlərinin təkmilləşdirilməsi, balıqartırma təsərrüfatlarının istehsal imkanlarının genişləndirilməsi, eləcə də su hövzələrinə balıq buraxılışının artırılması daxildir.

Nazirliyin rəsmisi bildirir ki, proqram çərçivəsində balıqçılıqla məşğul olan sahibkarlara dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, subsidiya və digər təşviq alətlərinin tətbiqi də nəzərdə tutulur. Hazırda isə Naxçıvanda balıqçılıq təsərrüfatlarının qeydiyyata alınması istiqamətində müvafiq işlər davam etdirilir.

"Balıqçılıq və akvakultura sahəsində qarşıya qoyulan hədəflərin ardıcıl icrası, dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, müasir yanaşmaların tətbiqi və sahibkarların fəal iştirakı nəticəsində bu sahənin inkişafı daha da sürətlənəcək. Bu isə həm iqtisadiyyatın gücləndirilməsinə, həm də əhalinin keyfiyyətli balıq məhsulları ilə təminatının yaxşılaşmasına mühüm töhfə verəcək", – deyə Yusif Əlizadə vurğulayıb.

Dövlət Proqramının müəyyən etdiyi hədəflər artıq Naxçıvanda fəaliyyət göstərən balıqçılıq təsərrüfatlarının inkişafı üçün də yeni perspektivlər açır. Muxtar respublikanın Kəngərli rayonunda fəaliyyət göstərən "Asnı" və "Şahtaxtı" forel balıqçılıq təsərrüfatları bu sahədə formalaşan potensialın bariz nümunələrindəndir.

Şahtaxtı kəndində yerləşən forel balıqçılıq təsərrüfatı 2023-cü ildə yaradılıb. Fəaliyyətə iki hovuzla başlayan təsərrüfatda hazırda hər biri 90 kubmetr tutumlu 6 hovuz və 3 torpaq göllə fəaliyyət göstərir.

Təsərrüfatın sahibi Polad Musayev bildirir ki, burada, əsasən, forel balığı yetişdirilir və istifadə olunan balıq kürüsü Avropa ölkələrindən gətirilir. Hazırda müəssisənin illik istehsal gücü 10-12 ton təşkil edir. Yaxın bir il ərzində bu göstəricinin 20-25 tona çatdırılması planlaşdırılır.

İstehsal olunan məhsullar, əsa-



sən, Naxçıvanın bazarlarında satılır, eyni zamanda restoranlara, otellərə və iaşə obyektlərinə təqdim olunur.

Sahibkarın sözlərinə görə, Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan dəstək mexanizmləri balıqçılıq təsərrüfatlarının inkişafına əlavə stimul verəcək. O, Prezident İlham Əliyevin cari ilin mayın 25-də keçirilən müşavirədə balıqçılıq sahəsində istehsalın artırılmasının vacibliyi ilə bağlı səsləndirdiyi fikirləri xatırladaraq bildirir ki, subsidiya və güzəştli kredit mexanizmlərinin tətbiqi istehsal güclərinin artırılmasına mühüm töhfə verə bilər.

Təsərrüfatın üstünlüklərindən danışan sahibkar qeyd edir ki, su mənbəyi təbii bulaq suyudur: "Mənbə təsərrüfatdan daha yüksəkdə yerləşdiyinə görə su heç bir elektrik enerjisi sərf olunmadan hovuzlara daxil olur. Bundan əlavə, suyun temperaturu bütün fəsillər boyu sabit qalır və oksigenlə zəngin olması





forel balığının yetişdirilməsi üçün əlverişli şərait yaradır.

Forel balıqçılığı keyfiyyətli, təmiz və sərin su tələb edən sahədir. Bu baxımdan, mövcud su ehtiyatlarından səmərəli istifadə etməklə təsərrüfatın daha da genişləndirilməsi üçün kifayət qədər potensial mövcuddur".

Hazırda Naxçıvanda fəaliyyət göstərən balıqçılıq təsərrüfatları göstərir ki, müasir yanaşma, əlverişli təbii şərait və dövlət dəstəyi



vəhdət təşkil etdikdə bu sahədə qısa müddətdə mühüm nəticələr əldə etmək mümkündür. Dövlət Proqramının qarşıya qoyduğu hədəflər də məhz bu potensialın daha geniş miqyasda reallaşdırılmasına hesablanıb.

Mövcud su ehtiyatları, formalaşmaqda olan balıqçılıq təsərrüfatları və Dövlət Proqramının yaratdığı yeni imkanlar bu sahənin inkişafı üçün möhkəm zəmin formalaşdırır. Qarşıdakı illərdə nəzərdə tutulan tədbirlərin ardıcıl icrası istehsalın artırılmasına, keyfiyyətli yerli balıq məhsullarının bazarda payının genişlənməsinə, yeni investisiyaların cəlbinə və məşğulluğun artmasına şərait yaradacaq. Bu baxımdan, balıqçılıq və akvakultura yalnız kənd təsərrüfatının perspektivli istiqamətlərindən biri kimi deyil, həm də Naxçıvanın iqtisadi potensialının daha səmərəli reallaşdırılmasına, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və qeyri-neft sektorunun inkişafına töhfə verən mühüm sahə kimi öz əhəmiyyətini daha da artıracaq.

**Nail ƏSGƏROV**



# Dövlət Proqramı: Naxçıvanda taxılçılığın inkişafında yeni mərhələ

*Prezident İlham Əliyevin bu il mayın 25-də imzaladığı Sərəncamla təsdiqlənən “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” aqrar sahənin davamlı inkişafı, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və istehsal-emal zəncirinin genişləndirilməsində yeni mərhələnin əsasını qoyur. Dövlət Proqramında kənd təsərrüfatında məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi, fermerlərin dövlət dəstəyi ilə əhatə dairəsinin genişləndirilməsi və strateji məhsullar üzrə istehsalın artırılması əsas prioritetlər kimi müəyyən edilib.*

*Proqramın mühüm istiqamətlərindən biri də strateji əhəmiyyət daşıyan taxılçılıq sektorunun inkişafıdır. Sənədə əsasən 2030-cu ilədək ixtisaslaşmış rayonlarda buğda üzrə orta məhsuldarlığın hər hektardan 50 sentnerə çatdırılması, istehsalın, təxminən, 20 faiz artırılması və ölkənin özünütəminetmə səviyyəsinin yüksəldilməsi hədəflənir. Bu məqsədlərə nail olunması üçün bütün regionlarda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.*

### Məhsuldarlığın ötən illə müqayisədə artacağı gözlənilir

Naxçıvanda taxılçılığın inkişafı istiqamətində ardıcıl işlər görülür. Ötən ilin payızında və bu ilin yazında muxtar respublika üzrə 13 min 844,1 hektar sahədə taxıl əkini aparılıb. Əkin sahələrinin 4174,3 hektarını buğda, 9669,77 hektarını isə arpa təşkil edib. Hazırda muxtar respublikada taxıl biçini mütəşəkkil şəkildə davam edir. İlkin nəticələr məhsuldarlığın ötən illə müqayisədə artacağını göstərir ki, bu da Dövlət Proqramında qarşıya qoyulan hədəflərə nail olunması baxımından mühüm əhəmiyyət daşıyır.



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri Səməddin Əsgərov bil-




dirib ki, taxıl biçini kampaniyasının operativ və koordinasiyalı təşkili məqsədilə nazirlikdə aidiyyəti qurumların iştirakı ilə Mərkəzi Qərargah yaradılıb. Qərargah tərəfindən biçinin gedişinə mütəmadi nəzarət edilir: “İndiyədək muxtar respublikada 6470 hektardan artıq sahədə taxıl biçini aparılıb. Bunun 1231.4 hektardan çoxunu buğda, 5238.6 hektardan çoxunu isə arpa sahələri təşkil edir. Hazırda 20 tondan artıq məhsul yığılıb”.

Onun sözlərinə görə, ötən il muxtar respublika üzrə 37 min 600 tondan çox taxıl istehsal olunmuşdu. Bu il isə məhsuldarlığın daha yüksək olacağı gözlənilir. Cari mövsümdə ən yüksək orta məhsuldarlıq Şərur rayonunda qeydə alınıb – hər hektardan 39,9 sentner məhsul əldə olunub. Əkin sahələrinin həcminə görə isə Babək rayonu liderdir. Rayonda 4200 hektardan artıq sahədə taxıl becərilib.

### “Gələcəkdə əkin sahələrini bir neçə dəfə artıracağıq”

Taxılçı, “Ruzi” un dəyirmanının sahibi Sənan Novruzov da builki mövsümün uğurlu keçdiyini bildirir. Deyir ki, uzun illərdir, əkinçilik və fermerlik fəaliyyəti ilə məşğuldur və əvvəllər yüzlərlə hektar sahədə taxıl becərib.

Fermer qeyd edir ki, bu il su qıtlığı ehtimalı nəzərə alınaraq əkin sahələri müəyyən qədər azaldılıb və təxminən, 30-40 hektar sahədə




əkin aparılıb. Lakin sonradan su təminatının yüksək səviyyədə olması məhsulun inkişafına müsbət təsir göstərib. Məhz buna görə də o, gələcək illərdə əkin sahələrini bir neçə dəfə artırmağı planlaşdırır. S.Novruzovun sözlərinə görə, ilkin müşahidələr bəzi sahələrdə




hər hektardan 35-40 sentner məhsul əldə olunacağını göstərir. Artıq biçini aparılan buğda sahəsindən hər hektardan 40 sentnerə yaxın məhsul götürülüb.

Hazırda təsərrüfatda arpa biçini davam etdirilir. Arpa daha tez yetişdiyi üçün ilk olaraq onun yığımı həyata keçirilir. Bu mərhələ başa çatdıqdan sonra isə buğda sahələrinin biçininə başlanılacaq.

Fermer fəaliyyətlərinin əsas üstünlüyünün istehsal zəncirinin tam şəkildə bir arada birləşdirilməsi olduğunu vurğulayır: “Sahələrdə yetişdirilən taxıl biçildikdən sonra “Ruzi” un dəyirmanında una çevrilir. Ardınca bu un özümüzə məxsus lavaş istehsalı müəssisəsində emal olunaraq hazır məhsul kimi istehlakçılara çatdırılır. Bu inteqrasiya olunmuş istehsal modeli məhsulun keyfiyyətinə bütün mərhələlərdə nəzarət etməyə, istehsal xərclərini optimallaşdırmağa və bazara daha münasib qiymətlə məhsul çıxarmağa imkan verir. Beləliklə, həm fermer, həm də istehlakçı bu sistemdən faydalanır”.

### Dövlət dəstəyi və müasir yanaşmalar Naxçıvanda öz real bəhrəsini verir

Naxçıvanda taxılçılıq sahəsində müşahidə olunan müsbət dinamika göstərir ki, dövlət dəstəyi, fermerlərin artan fəallığı və müasir istehsal yanaşmalarının tətbiqi öz real nəticələrini verir. Taxıl istehsalında məhsuldarlığın yüksəlməsi, emal imkanlarının genişlənməsi və istehsal zəncirinin vahid sistem şəklində qurulması həm ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, həm də kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılmasına xidmət edir. Bu baxımdan, Prezident İlham Əliyevin təsdiqlədiyi 2026-2030-cu illər üçün Dövlət Proqramında nəzərdə tutulan hədəflərin Naxçıvanda ardıcıl şəkildə həyata keçirilməsi qarşıdakı illərdə də taxılçılığın inkişafını sürətləndirəcək, regionun aqrar potensialının daha səmərəli reallaşdırılmasına və ölkənin strateji ərzaq təminatına mühüm töhfə verəcək.

**Nail ƏSGƏROV**

# Lavanda bitkisi gələcəkdə muxtar respublikanın iqtisadi dəyər yaradan aqrar məhsullarından birinə çevrilə bilər

Yay fəslinin ən gözoxşayan mənzərələrindən biri bənövşəyi rəngə bürünmüş lavanda sahələridir. Səhərin ilk Günəş şüaları lavanda kollarının üzərinə düşdükcə ətrafa yayılan zərif qoxu insanı tamam başqa aləmə aparır. Bir vaxtlar yalnız xarici ölkələrin geniş lavanda tarlalarında görməyə alışdığımız bu mənzərə artıq Naxçıvanda da formalaşmağa başlayıb. Muxtar respublikada ilk dəfə salınan lavanda sahəsi kənd təsərrüfatında yeni istiqamətin əsasını qoyur.

Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun ərazisində yaradılan sınaq sahəsi gələcək üçün böyük ümidlər vəd edir. 2024-cü ilin mart ayında burada 0,6 hektar sahədə Lavandula angustifolia növünün ilk sınaq əkini həyata keçirilib. Əkin materialları Bolqarıstandan gətirilib və yerli torpaq-iqlim şəraitinə uyğunlaşdırılıb.

Lavanda sahəsində görülən işlərlə yaxından tanış olarkən Naxçıvan Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Yasin İsmayılov bildirib ki, məqsəd bu bitkinin Naxçıvanın torpaq və iqlim şəraitində məhsuldarlığını öyrənmək, uğurlu nəticələr əldə olunduğu təqdirdə isə əkin sahələrini daha da genişləndirməkdir. Onun sözlərinə görə, hazırda sahədə bütün aqrotexniki tədbirlər bitkinin bioloji xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilir. Suvarma, becərmə və digər qulluq işləri vaxtında aparılır ki, bu da bitkinin sağlam inkişafına şərait yaradır.



Əməkdaşın sözlərinə görə, lavanda yüksək iqtisadi əhəmiyyətə malik bitkilərdən biridir. Əczaçılıq, kosmetika və efir yağları sənayesində geniş istifadə olunan bu bitki zəngin efir yağı tərkibi ilə seçilir. Aqrotexniki qaydalara düzgün əməl olunduğu halda hər hektardan 150 kiloqrama qədər efir yağı əldə etmək mümkündür. Bu isə fermerlər üçün gələcəkdə yeni və gəlirli istehsal istiqamətinin formalaşmasına imkan yaradan bilər.



Lavanda sahəsində diqqəti cəlb edən məqamlardan biri də çiçəklərin ətrafında fasiləsiz dolaşan arılardır. Məlum olur ki, bu bitki arıçılıq üçün də olduqca qiymətlidir. Çiçəkləmə dövründə bol nektar verən lavanda arıları özünə cəlb edir və yüksək keyfiyyətli, xoş ətirli balın istehsalına şərait yaradır. Beləliklə, bir bitkinin becərilməsi, eyni zamanda bir neçə sahənin inkişafına da töhfə verir.

Bu gün hələ sınaq mərhələsində olan lavanda əkinləri gələcəyin böyük layihəsinin ilk addımı hesab olunur. Əldə ediləcək nəticələrə uyğun olaraq sahələrin genişləndirilməsi nəzərdə tutulur. Bu isə həm kənd təsərrüfatının şaxələndirilməsi, həm yeni gəlir mənbələrinin yaradılması, həm də yerli xammal bazasının gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Bu gün Naxçıvanda bənövşəyi rəngə boyanan kiçik bir sahə gələcəyin böyük layihəsinin başlanğıcı kimi görünür. Əgər aparılan sınaqlar uğurla davam edərsə, yaxın illərdə lavanda xoş ətri ilə yanaşı, həm də kənd təsərrüfatının inkişafına, məşğulluğun artırılmasına və iqtisadi dəyərin yüksəlməsinə verdiyi töhfə ilə də seçiləcək. Naxçıvanın məhsuldar torpaqlarında yetişən bu zərif bitki gələcəkdə muxtar respublikanın yeni aqrar brendlərindən birinə çevrilə bilər.

**Elnurə CƏFƏROVA**

# Kəndin daşlaşmış tarixi

## Nüsnüsün özünəməxsus ruhu, keçmişi var




✍ Ceyhun MƏMMƏDOV

Kəndə ayaq basar-basmaz bizi uca və sərt qayalıqların tam zirvəsində, buludlara toxunacaq qədər yüksəklikdə bitən tənha bir ağac qarşılayır. Ətrafında nə başqa ağac, nə də kölgəsində dincələn bir canlı var. Dağın başında təkbaşına dayanan bu ağaca sanki digərləri rəhm edir: yanında söykənəcəyi, qışın şaxtasında birgə qorunacağı kimsəsi yoxdur. Bəziləri onu, hətta bədbəxt taleyin simvolu da hesab edir. Lakin tənha ağacın hekayəsi çarəsizlik yox, illərin sınağından çıxmış sevgi, gözəllik, dözümlülük rəmzidir. Günəşin doğuşunu ilk qarşılayan, qürubunu ən son yola salan, gecələr ulduzları sanki budaqlarına qonduran bu ağacı külək hər dəfə qəzəblə əsəndə yerindən qoparmaqla hədələyir. Lakin Leyli və Məcnun, Əsli və Kərəm, Xosrov və Şirin kimi əsrlərdən gələn sevgi dastanları bu ağaca hər fırtınada əyilməməyi, sınmamağı öyrədib.

Tənha ağacın hekayəsini danışan Nüsnüs kənd sakini Oruc Əliyev deyir ki, bir vaxtlar varlı ailənin qızı kasıb bir oğlanı sevirmiş. Lakin qızı atası nimdaş paltarda gəzən oğlana verməyincə qız evdən qaçır və dağlara sığınır. Qız Allaha yalvarır ki, onu ya ağaca, ya da daşa çevirsin. O, ağaca çevrilir – elə bir ağaca ki ilin dörd fəslində zirvədə belə öz yaşıl budaqlarını heç nəyə təslim etmir. Deyilənə görə, bu ağacın hər budağı qırıldığında oradan hətta qan gəlir...





Hər kəndin özünəməxsus bir ruhu, keçmişi var. Nüsnüs kəndinin dar, daş döşənmiş küçələri ilə yuxarıya doğru irəlilədikcə hər həyətdən bir həyat nişanəsi boylanır. Sanki bu həyatlar ən dürüst, ən toxunulmaz kəndin küçələrini bürüyən, həyətləri bir-birindən ayıran köhnə daş divarlarda gizlənib. Bu divarlar, sadəcə, torpaq və daşdan tikili deyil, onlar həm də zamanın sınağından keçmiş bütöv bir yaddaşın, mədəniyyətin, insan talelərinin canlı şahidləridir. Bu divarlar həm də tarixin dramatik anlarına susqun halda baxanlardır. Kim bilir, neçə-neçə nəsil bu divarların kölgəsində böyüyüb, uşaqlar onun daşları üzərində oynayıb, yaşlılar kürəklərini bura söykəyib kəndin keçmişindən söhbət açıb. Bəzən belə kəndlərdə müharibələr, təbii fəlakətlər tez-tez baş verib, amma bu daş divarlar sanki kəndin kökünü yerdə saxlamaq üçün inadla ayaqda qalıb. Divarların üzərindəki kiçik çatlar, qırıqlar, sadəcə, zamanın aşınması deyil, həm də kəndin çəkdiyi acıların, çətinliklərin izləridir. Rəvayətlərə görə, bu kənd adını “Nis-Nis” sözündən götürüb və “yox-yox” mənasını kəsb edir. Belə ki, o dövrlər zülmdən qaçan şəxslər, qaçaqlar kəndə sığınarmış. Kəndin yuxarı hissəsində isə böyük, bağlı qalan darvaza olub və bu darvazanın girəcəyində hər zaman mühafizəçilər durarmuş. Qaçaqları axtaran şəxslər onları soruşduqda cavabında “nis-nis” (yox) sözünü eşidirmişlər. Fars mənşəli bu sözün sonrakı mərhələlərdə fonetik dəyişikliklər nəticəsində Nüsnüs şəklini alması ehtimal edilir. Bəzi mənbələrdə isə kəndin adı “5 gülşə” kimi də qeyd olunur.





Nüsnüsdə yaşayan insanların simasında dağların sərtliyi ilə yanaşı, qəribə bir hüzur və mərdlik var. Onların alın qırışlarında illərin zəhməti, gözlərində isə dağların dərinliyi oxunur. Burada hamı bir-birini tanıyır, kilidlənməyən qapılarına baxdıqda insan əməyini, təbiətin harmoniyasını görmək olur, hər gələn qonaq “Tanrı qonağı” sayılır. Kəndin ortasından keçən gur Dübəndi çayının yaxınlığında, qoca çinarın kölgəsində əyləşən Kamal Lütfəliyevlə söhbətləşirik. Bizə kəndin tarixindən, dağların bəxş etdiyi kəndin qədim adət-ənənəsindən danışır: “Kəndimizin çörəyi də, suyu da, meyvəsi də, ləhcəsi də fərqlidir. Burada insanlar danışığı ilə seçilirlər, onların ifadələrindən müəyyən etmək olur nüsnüslü olduğunu. Ordubad onsuz da öz meyvələri ilə ölkə və ölkənin hüdudlarından kənarda tanınır. Nüsnüs isə limonu ilə məşhurdur. Üst tərəf dağ, orada yaşıllıq bir ərazi və subtropik təbii şərait: bizim limon min bir dərdə dərmandır. Qabığında acılıq yox, əksinə, meyxoşluq var, həm turş, həm də şirin olur. Ən əsası, burada limonlar parniklərdə yox, dibçəklərdə yetişdirilir”.

Limonlu çayı içə-içə bir məqam düşündürür insanı: kənddə çay içmək şəhərdəki kimi tələsik bir ritual deyil. Burada içdiyin hər stəkan çayın bir çəkisi var. Limon diliminin çayın tündlüyünü yumşaltması kimi, Nüsnüsün də gözəl ab-havası insanın ürəyini sərinlədir. Elə bu anda Oruc kişinin səsini eşidirik, bizi kəndin qədim küçələrinə aparacağını deyir. Addımlarımızı “itiləyib” kəndin daş divarlı dar yollarında bir sükunətə qərq oluruq. Burada zaman qaçmır, dar yollar elə salınıb ki, sanki hər döngə bir sirri özündə gizlədir. İki tərəfi ucalan daş divarların arasında addımladıqca ayaqlarımızın altından qalxan yüngül toz dumanı, divarlardan “süzülən” toz qırıntıları insanı başqa bir aləmə aparır. Sanki bura keçmişlə bu günün kəsişməsidir, bu küçələrdən, yollardan kimlər keçməyib ki?! Divarların üzərində saralmış otlar, daşların arasından boylanan xırda çöl bitkiləri, uşaqların bizə baxaraq əl etmələri təbiətin insana bəxş etdiyi gözəlliklərin ən gözəl sübutudur. Bu daşlı yollarda düzülən köhnə taxta qapılar kəndin daxili dünyasına açılan pəncərələrdir sanki. Onların bəziləri keçmişimizlə gələcəyimiz arasında qurulmuş möhkəm, sarsılmaz körpülərdir. Bəziləri isə həzin əsən küləyin təsirindən astaca açılaraq insanın üzünə xatirələri “sillə” kimi çırpanlardır.

Bir az da irəliləyirik, mənzərə dəyişməyə başlayır. Gözümüzə kəndin, sadəcə, qədimliyi yox, həm də zamanın amansız rüzgarına tab gətirə bilməyən, uçub-dağılan evləri dəyir. Çiy kərpic divarlar, damı çökmüş otaqlar, yerindən oynamış pəncərələr, çökmüş tavanların arasından göyə doğru boylanan yabanı ağaclar və daha nələr-nələr. Evə daxil olmağa çalışırıq, arxadan Oruc kişi səsləyir. Bir vaxtlar xalçaların bəzədiyi otaqların künclərində, döşəmələrində indi yamyaşıl otların kök saldığını görəcəyimizi deyir. Uşaq gülüşləri, qaynar ocaq istisi gələn bu evlər indi tam bir sükunətə qərq olub. Yarıq divarlarda özünə yuva quran quşların səsi diksindirir bizi. Bu evlər kəndin həm vizual mənzərəsini, həm də içimizdəki düşüncələrin axarını dəyişir. Anlayırıq, bu dünyada binaları ayaqda saxlayan daş, kəsək, kərpic yox, bəlkə də, elə insanın nəfəsidir. İnsan nəfəsi olmayan ən möhkəm divarlar belə boynunu bükür...

“Zaman ən amansız memardır”, – deyirlər. O, tikdiyi kimi, dağıtmağı da bacarır. Kəndin qədim məscidlərinin, evlərinin yanından səssizcə ötüb keçirik. Bu dəfə addımlarımızı asta ataraq düşünürük, bəzən zamanın bu dağıdıcı gücündə insan biganəliyinin də önəmli rolu var. Yoxsa yeraltı hamamlar qrupuna aid Nüsnüs hamamının vəziyyəti bu halda olmazdı. Abidənin yanına yaxınlaşanda insanı qəribə bir kədər, aura bürüyür. Zamanında min bir əziyyətlə, müqəddəs hisslərlə inşa edilmiş o əzəmətli hamam divarları indi zamana və insan laqeydliyinə boyun əyir. Damının müəyyən hissəsində çöküntü yaranmış, balıq qulaqlarının ovuntusu un halına salınaraq narın halda axayla yoğrulub çəkilən üzlüyü dağılmış, içərisi dolmuş, sütunları ovulmuş bu abidə sanki vaxtilə qoruduğu kəndin ortasında tənha, çarəsiz bir qoca kimi dayanıb. Onun hər uçan dağ daşı, hər ovulan sütunu keçmişimizdən qopan bərpa olunmaz bir parçadır. Oruc Əliyev deyir ki, uzun illər keçəndən sonra, 2001-ci ildə vicdanım qəbul etmədi, necə deyərlər, gəldim onun bərpasına, təmizlik işlərinə özüm baxdım: “Deməli, külüng, mala, vedrə götürdüm, gəldim. İçəriyə giriş qeyri-mümkün idi. Hamamın içərisi tamamilə söküntü ilə dolmuşdu. Ora daxil olmaq belə mümkün deyildi. Onları bir-bir təmizlədim. Hamama enən 12 pillə olduğunu müəyyən etdim. Ondan sonra bəlli oldu ki, bunun neçə pilləkəni var, hündürlüyü nə qədərdir, giriş-çıxışı necədir”. Deyilənə görə, belə hamamlar Ordubadda bir çox kəndlərdə var və eyni layihəyə məxsus hamamlardır. Bunların memarı bir adam olub və bu, Ordubadda Şah Abbasdan qalma bir adət-ənənədir. Onun təkidi ilə inşa edilib. Bu hamamın ən gözəlliyi, ən özəlliyi ondan ibarətdir ki, bura bişmiş kərpiclərdən yox, dağ daşları ilə tikilib. Dağlardan 9 donlu – cəvənk odunu deyilən odunla hamam həftədə 2 dəfə qızdırılırdı, bir günü kişilərə, bir günü isə qadınlara həsr edilirdi.

Adətən, abidələr kəndlərin yaddaş mərkəzidir. Əgər o yoxdursa, kənd, sadəcə, köhnə evlərin yığınından ibarət bir məkana çevrilir.

...Kənddən ayrılırıq aldığımız iki limonla. Bu limonlar şəhərdəki işimizin ritmini dəyişməyəcək, sadəcə, çayımıza dad verəcək. Kəndin daşlaşmış tarixi isə unudulmaz olaraq yaddaşımızda qalacaq. Yaddaşımıza laqeyd olmayaq...



# Xaraba Gilan şəhər yerindəki II memorial kompleks: axtarışlar, nəticələr



**Yol yenə Ordubada sarıdır. Rayon ərazisində keçmişlə bu günümüzə körpü salan onlarla abidə var. Əksər qismi şəhərin bağrında əsrlərin sınağından keçərək hələ də öz qamətini dik saxlayan, memarlıq üslubu ilə şəhərin nəqşinə tarixi möhürünü vuran abidələr – Zorxana, buxzana, məscidlər, kəhrizlər, qədim məhəllələr bu torpağın sərvətidir. Tarixin qaranlıq səhifələrinə işıq tutan, kimliyimizin rəmzi olan, mədəniyyətimizin, məişətimizin, inancımızın göstəricisi olan Ordubad abidələri xarici səyyahları da özünə məftun etmiş, öz əsərlərində sevə-sevə bəhs etmişlər. Ordubadın adına ilk dəfə e.ə. I minilliyin əvvəllərində yazılı mənbələrdə "Ardupa" kimi rast gəlinir. Rayonun ərazisi Qədim Daş dövründən başlayaraq Son Orta əsrlərə qədərki dövrə aid abidələrlə zəngindir, Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Qapıcıq dağının cənub-şərq yamacındakı Qaranquş yaylağında Tunc və İlk Dəmir dövrlərinə aid edilən, üzərində ov və rəqs səhnələri, müxtəlif işarələr və damğalar olan qaya parçaları aşkar edilmişdir ki, bu da əcdadlarımızın həyat tərzini, dünyagörüşünü, adət-ənənələrini izləməyə imkan verir. Bu mənada, Xaraba Gilan şəhər yeri isə orta əsrlər dövrünün şəhər həyatını, təsərrüfatını, sənətkarlığını, müdafiə sistemini, su təchizatını və memarlığını tədqiq etmək üçün unikal arxeoloji abidədir.**

*Arxeoloqlar tarixin dərin qatlarında*

Xaraba Gilan şəhər yeri hələ ötən əsrin əvvəllərindən öyrənilməyə başlanılıb. Belə ki, ilk tədqiqatlar 1926-29-cu illərdə aparılmış, 1976-cı ildən şəhər ərazisində başlanılmış arxeoloji tədqiqatlar isə fasilələrlə günümüzədək davam etməkdədir. Rayon mərkəzinə çatmamış Aza kəndinin şimal-şərqində yerləşən yol ayrıcı bizi Xaraba Gilan şəhər yerindəki II memorial kompleksə aparır. Xaraba Gilan şəhər yeri və onun ətrafındakı abidələr Azərbaycan tarixi və arxeologiyası üçün mühüm əhəmiyyətə malikdir. Arxeoloqlarımızın apardığı uğurlu tədqiqatlar tarixin dərin qatlarının sirlərini açmağa, öyrənməyə imkan verir. Nahamar yollarla irəliləyən avtomobilimiz, nəhayət, abidəyə yaxın ərazidə dayanır. Bir qədər piyada qalxmalı oluruq. Bizi AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri, Xaraba Gilan arxeoloji ekspedisiyasının rəisi, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli qarşılayır. Naxçıvanın qızmar Günəşinin şüaları altında şövqlə işləyən gənc arxeoloqlarla – Sevinc Hüseynova, Lola Hüseynova və Günel Əliyeva ilə də tanış oluruq. Kənardan bu iş çoxları üçün, bəlkə də, sadə görünə bilər. Amma daha çox fırça və külünglə işləyən arxeoloqlar tarixin izlərini özündə daşıyan hər bir artefaktı zədələmədən üzə çıxarır, torpağın qoynunda gizlədiyi abidələrin üstünü ehtiyatla açırlar. Bəhlul müəllim bizi komplekslə tanış edir. May ayının 4-dən başlanılan ekspedisiya müddətində xeyli iş görülüb. Xaraba Gilan şəhər yerində fasilələrlə 50 il tədqiqat aparan Bəhlul İbrahimli deyir ki, bu il də ekspedisiya bir sıra tapıntıları ilə yadda qalacaq. Amma Xaraba Gilan şəhər yeri necə yaranıb, ilk olaraq bu tarixi səhifələmək lazım gəlir.

*Burada şəhər necə yaranıb?*

Giran (Kiran) şəhəri iqtisadi, siyasi, mədəni cəhətlərin inkişafı sayəsində formalaşıb. Bəhlul müəllimin dediyinə görə şəhər yerinin yaxınlığında XII-X əsrlərə aid nekropollar var. Mərdan gölü nekropolu X-VIII əsrlərə, daş qutu qəbirlərdən ibarət Muncuqlutəpə nekropolu e.ə. VIII-VI əsrlərə aiddir. Xaraba Gilan şəhər yeri elə- belə formalaşmayıb. Mərdan gölü və Muncuqlutəpə nekropollarından qərb tərəfdə – Plovdağda 3 nekropol var. Olduğumuz ərazi ilə üzbəüz yerləşən Plovdağı göstərən tarixçi-alim deyir ki, bu, 3 minillik xronoloji çərçivəni əhatə edən böyük abidələr kompleksidir. Kompleksdə həm yaşayış yerləri, həm nekropollar, həm də dini təyinatlı tikililər var. Plovdağ nekropolunda 103 kurqan birində, 44 kurqan birində, 14 qəbir də 3-cü nekropolda öyrənmişik. 1-ci, 2-ci nekropolların həm yanında, həm də altında yaşayış yerləri var. Üst mədəni təbəqə Son Tunc dövrünün kurqanlarıdır, alt hissəsi Erkən və Orta Tunc dövrü yaşayış yeridir. Tunc dövrünün bütün mərhələlərini 2-ci Plovdağ nekropolunda öyrənmək mümkündür. Erkən Dəmir dövrünə dair 3-cü Plovdağ nekropolu isə tamamilə ayrı tapıntıdır. Kurqanların forması fərqlidir. Bu dövr Plovdağın tərkolunan vaxtıdır. Çünki, e.ə. XIII əsrin sonu, XII əsrin əvvəllərində Assuriyanın hücumları başlayır. Assuriya bir dövlət kimi güclənir və ətraf ərazilərə hücum edir. Bu ərazilərdən keçərək Xəzərin cənubuna qədər gediblər. Plovdağ artıq XIII əsrin sonunda protoşəhər kimi abidə idi. Plovdağda coğrafi cəhətdən müdafiə qabiliyyəti olmadığından sakinlər Gilançayın sağ sahilinə keçib Sumbatan-dizə şəhər yerini salıblar. Sumbatan-dizə şəhər yerinin 3 qat müdafiə divarı var. Narınqalası, müdafiə divarları, su təchizat sistemi vardır. Sumbatan adı Mannaya dair mixi yazılarda iki yerdə çəkilib. Manna tayfalarının ən güclüsü sumbi tayfaları idi. Bu şəhər eramızdan əvvəl XII əsrdə assurların hücumu başlayan vaxtdan ta Əhəmənilər dövrünə, hətta deyərdim ki, e.ə. 512-ci ildə sakların üsyanı olan vaxtı dağılan şəhərdir. Əhəmənilər onlara qarşı mübarizə aparırdı. Sumbatan-dizə e.ə XII-VI əsrin sonlarına qədər mövcud olmuşdur. İki əsr buradakı şəhərlər haqqında bir məlumat yoxdur. Amma, e.ə. IV əsrdən Xaraba Gilanın artıq müdafiə sistemi, su təchizatı sistemi var idi və burada e. ə. II əsrə aid Parfiya çarı Böyük Mitridatın (e.ə. 123-87) gümüş sikkəsi tapılıb. Bütün bunlar göstərir ki, e.ə. IV-III əsrlərdə Giran (Kiran) şəhəri formalaşmışdı. Tarixçi-alim Sara Aşurbəyli qeyd edir ki, Giran adı şəhərə sonradan verilib. İlkin adı Aza olub. Az tayfalarının adı ilə – Aşağı Aza, Yuxarı Aza kənd adları da var, Arazın o tərəfində də Maraza, yəni marlarla azların-asların yaşadığı yer. Orta əsr mənbələrində bura Azadgiran adlanır. E.ə. X əsr ərəb tarixçisi Əssam əl-Kufi VII əsrə aid hadisələrdən bəhs edərkən Təbrizlə Beyləqan arasında kiran şəhərinin olduğunu yazır. Sonrakı mənbələrdə də Kiran, Giran adına rast gəlirik. Məhəmməd Hinduşah Naxçıvaninin atasının ləqəbi Girani idi. Onlar burada doğulmuşdular.

E.ə. III Sasanilər dövründə Naxçıvanın ağır günləri başlayıb. Dağıntılara məruz qalıb. Hətta, sasanilər Naxçıvan və onun ətrafından 18 min ailəni deportasiya ediblər. Sasanilərin Naxçıvanda pul zərb edən sikkəxanaları da olub. Ərəblərin hücumuna qədər Naxçıvan ərazisində əhəmiyyətli bir abidə qeydə alınmayıb. Sasanilər Naxçıvanın inkişafına əngəl olublar. Daha sonra Naxçıvan ərəblərin işğalına məruz qalıb. IX əsrin sonu X əsrin əvvəllərində ərəblər zəifləyəndən sonra hər yerdə feodal dövlətləri yarandığı kimi Azərbaycanda da yaranırdı. Naxçıvanda da Naxçıvanşahlıq yaranmışdı. Naxçıvanşahlıq idarə edən Dülafilər tayfası idi. Bu dövrdə Naxçıvanın mədəni cəhətdən inkişafı müşahidə olunur. Feodal dövlətinin zəiflədiyi dövrdə səlcuq tayfaları gəldi. Onların yaratdığı Böyük Səlcuq dövləti Naxçıvanın inkişafına da təsirsiz ötüşmədi. Həmin dövrdə Naxçıvan memarlıq məktəbi yaranmışdı. Bu məktəbin abidələri içərisində Yusif Küseyir oğlu (1162), Möminə xatun (1186) türbələri, Xaraba Gilandakı Böyük Səlcuqlular dövrünə aid memorial kompleksdə Əcəminin inşa etdiyi səkkizüzlü türbəni (1170-ci illər) xüsusilə qeyd etmək lazımdır. Kompleksdə 50-yə qədər daş türbə vardır. Belə bir memorial kompleks Mərkəzi Asiyada, Əfrasiyab şəhər yerində vardır. Naxçıvan Səlcuqlar dövründə həm iqtisadi, həm mədəni cəhətdən inkişaf eləmişdi. Bizim qazıntılarda aşkar edilən toxuculuq məmulatlarını buna misal gətirə bilərik. Səlcuqlu dövrünə aid parçaların özü yüksək təbəqəyə məxsus parçalar idi. Çünki bu parçalar qızıl, gümüş saplarla toxunmuşdu. İndiyə qədər də rəng və keyfiyyətini itirmədən qalıb. Səlcuqlardan sonra Atabəylər dövrü gəlir. Atabəylər dövründə səlcuqlu mədəniyyəti daha da inkişaf eləmişdi. Monqolların hücumu nəticəsində baş verən dağıntılardan sonra iqtisadiyyat zəifləyir. Şirli qab istehsalı dayanır. Monqollar 1231-ci ildə ikinci hücumları zamanı yerləşmək və dövlət qurmaq üçün gəlmişdilər. 1231-ci ildən Naxçıvan Qızıl Ordanın tərkibində idi. Hülaki xan 1256-cı ildə Yaxın Şərq, Azərbaycan, Cənubi Qafqaz da daxil olmaqla, 5-ci ulusu yaradır, Hülakülər həm də İlxanilər dövləti adlanır. "İl" imperiyanın tabe elədiyi yerlərə deyirdilər. İlxanilər dövlətinin yenidən qurduğu qalalardan biri də Gilan qalası idi. Şəhər XIV əsrin 30-cu illərində Əbu Səidin dövründə zəifləyir, dağıntıya məruz qalır və tərk edilir. Bu şəhərdən 500 metr aralı Aza şəhəri dirçəlir. Aza şəhərinin inkişaf dövrü Ağqoyunlu, Qaraqoyunlu və Səfəvilər dövrünə düşür. XVI əsrin sonları, XVII əsrin əvvəlləri Ordubad şəhər kimi meydana çıxır.





*İlxanilər dövrünə aid böyük nekropol – 8 türbədən ibarət kompleks*

Ötən il Xaraba Gilan şəhər yerində qazıntı aparılarkən çıxan materiallar İlxanilər dövrünə aiddir. Arxeoloji ekspedisiyanın rəisi Bəhlul İbrahimli qeyd edir ki, Xaraba Gilanın son dövrü İlxanilər zamanına düşür. Burada 8 türbə var. XIII-XIV əsrlərin 30-40-cı illərinə aid qəbir türbələrdir. Abidə 4 dəfə – XIV, XVI, XIX əsrdə və sovet dövründə dağıdılıb. Bu türbələr özündə tanrıçılığın əlamətlərini daşıyır.

Türbələrin hamısı kubşəkillidir. Ən böyük 1 saylı türbədir. Türbənin sərdabəsi xaçşəkilli formadadır. Ümumiyyətlə, Xaraba Gilan şəhər yerində xaç formasına həm ictimai, həm dini, həm də müdafiə tikililəri vardır ki, burada da əsas məqsəd tikilini zəlzələdən qorumaq olub. Türbələrin üzlüklərində istifadə olunan kərpiclər də müxtəlifdir. Təkcə həndəsi deyil, nəbati formada da bişmiş kərpiclər var. 2-ci türbənin sütununun tərtibatına, naxışlarına görə 1 saylı türbədən fərqlənir. Çox güman ki bu türbə əvvəlkindən 40-50 il sonra inşa olunub. Bu türbələrin bəzilərində elə kərpiclərə, elə elementlərə rast gəlinir ki, nə birinci memorial kompleksdə, nə də Xaraba Gilan şəhər yerinin başqa tikililərində rast gəlinmir. 2 saylı türbədə aşkar olunan qoç buynuzu formasında dekorativ kərpiclər vardır ki, bunlar qönçə və altındakı yarpaqlara da oxşayır. Hələlik üç türbə tədqiq edilmişdir. Türbələr tip baxımından oxşar olsalar da, həndəsi ornamentlərinə və daxili quruluşlarına görə bir-birindən fərqlənirlər. Adətən, belə türbələr bir nəslə məxsus ailə türbələri olur. Arxeoloji qazıntılar zamanı türbələrin ətrafından çoxlu sayda dekorativ bişmiş kərpiclər və ara bəzəkləri aşkar edilmişdir. Ara bəzəkləri, əsasən, astral fiqurlardan – günəş, ay və ulduz təsvirlərindən ibarətdir.

*Gələn il 4-cü türbə açılacaq*

Xaraba Gilan Cənubi Qafqazın az öyrənilmiş, lakin zəngin tarixi-mədəni irsə malik mühüm arxeoloji abidələrindən biridir və burada aparılan tədqiqatlar regionun qədim tarixinin öyrənilməsində xüsusi əhəmiyyət daşıyır. Xaraba Gilan şəhər yerində ikinci memorial kompleksdə tədqiq olunan kubşəkilli türbələr sübut edir ki, Naxçıvan memarları təkcə qülləvari türbələr deyil, eyni zamanda kubşəkilli türbələr də inşa etmişlər. Bu türbələr XIII-XIV əsrlərdə Naxçıvan memarlığının inkişaf xüsusiyyətlərini hərtərəfli öyrənməyə imkan verir. Bəhlul müəllim bildirir ki, əvvəlki ekspedisiyalarda olduğu kimi, bu il də unikal məlumatlarla qayıdacağıq. Növbəti il 4-cü türbə açılacaq.

*Xaraba Gilan arxeoloji turizmin ünvanlarından ola bilərmi?*

Bu sualla tarixçi-arxeoloq Bəhlul İbrahimliyə müraciət edirik. Müsahibim belə bir təkliflə artıq müraciət etdiyini bildirir. Qeyd edir ki, böyük tarixi əhəmiyyətə malik olan Xaraba Gilan şəhər yerini və ətraf əraziləri tanıtmaq, bu ünvanlara turist cəlb etmək olar. Bu həm iqtisadi baxımdan səmərə verər, eyni zamanda tarixin təbliğinə töhfəsini vermiş olar. Dünya təcrübəsi də göstərir ki, turistlər daha çox mahiyyət etibarilə maraqlı olan abidələri ziyarət edirlər. Bilirsiniz, Xaraba Gilan şəhər yerinin abidələri unikal abidələrdir.



Ruhiyyə RƏSULOVA

# Mərkəzin ən böyük uğuru insanlara öz güclərinə inanmağı öyrətmək və həyatlarına yeni ahəng qatmaqdır

**Bəzən bir musiqi sədası insanın ifadə edə bilmədiyi duyğuların dilinə çevrilir. Bəzən bir mahnı həyatın çətinliklərini unutdurur, bəzən isə insana özünə yenidən inanmaq gücü verir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə səfərimiz zamanı bunun canlı şahidi olduq.**





Cəmiyyət bəzən məhdud fiziki imkanlı insanları yalnız onların qarşılaşdığı çətinliklər fonunda görür. Halbuki hər bir insanın daxilində kəşf edilməyi gözləyən istedad, gerçəkləşməyi gözləyən bir arzu yaşayır. Həmin istedadların üzə çıxarılması, arzulara yol açılması isə cəmiyyətin ən mühüm vəzifələrindən biridir. Məhz bu missiyanı həyata keçirən ünvanlardan biri də bu mərkəzdir.

Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi uzun illərdir ki, məhdud fiziki imkanlı və xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial reabilitasiyası, cəmiyyətə inteqrasiyası və yaradıcılıq potensialının inkişafı istiqamətində ardıcıl fəaliyyət göstərir.

Mərkəzə daxil olan kimi diqqəti çəkən ilk məqam burada hiss olunan səmimilik və mehribanlıq olur. İnsan özünü böyük bir ailənin üzvü kimi hiss edir. Divarlardakı rəsm əsərləri, müxtəlif yaradıcılıq nümunələri və ən əsası, insanların simasındakı təbəssüm bu hissi daha da gücləndirir.

Mərkəzdə fəaliyyət göstərən müxtəlif reabilitasiya və yaradıcılıq bölmələri hər bir benefisiarın maraq dairəsinə və ehtiyaclarına uyğun şəkildə təşkil olunub. Burada əsas məqsəd yalnız müəyyən bacarıqlar öyrətmək deyil. Əsas hədəf insanların özlərinə olan inamını artırmaq, onları aktiv həyata hazırlamaq və cəmiyyətin ayrılmaz hissəsinə çevirməkdir.

Bu bölmələr arasında xüsusi maraqdoğuran fəaliyyət istiqamətlərindən biri musiqi terapiyasıdır. İlk baxışda sadə görünən bu fəaliyyət, əslində, insan həyatında böyük dəyişikliklər yarada bilir. Çünki musiqi hisslərin dilidir, insanın daxilində gizlənən duyğuların ifadəsidir. Musiqi həm də ümiddir.

2018-ci ildə yaradılan musiqi terapiyası bölməsi bu gün mərkəzin ən fəal istiqamətlərindən biri hesab olunur. Burada iştirak edən benefisiarlar müxtəlif musiqi alətləri ilə tanış olur, ritm duyğularını inkişaf etdirir, mahnılar ifa edir, kollektiv fəaliyyətlərə qoşulur və ən əsası, özlərini ifadə etməyi öyrənirlər.

Mərkəzin əməkdaşlarının sözlərinə görə, buraya müraciət edən şəxslər, ilk növbədə, psixoloji dəstək xidmətində qəbul edilir. Onlarla fərdi söhbətlər aparılır, onların ehtiyacları və maraqları müəyyənləşdirilir. Bundan sonra isə uyğun reabilitasiya proqramlarına yönləndirilirlər. Musiqi terapiyası da həmin proqramlar arasında ən çox maraq göstərilən istiqamətlərdən biridir.

Musiqi otağında olduğumuz zaman diqqətimizi bir məqam xüsusilə cəlb etdi. Burada heç kim özünü digərindən fərqli hiss etmirdi. Hamı eyni məqsəd ətrafında birləşmişdi – öyrənmək, inkişaf etmək və bacarıqlarını nümayiş etdirmək.

Məşqlər zamanı otaqda yaranan enerji insanı valeh edirdi. Musiqinin sədaları altında iştirakçılar təkcə notları yox, özünəinamı da öyrənirdilər. Hər uğurlu ifa, hər düzgün ritm, hər alqış onlar üçün kiçik görünən, amma əslində, böyük əhəmiyyət daşıyan nailiyyətdir.

Mərkəzin əməkdaşları bildirirlər ki, musiqi terapiyası insanın emosional vəziyyətinə müsbət təsir göstərir, ünsiyyət bacarıqlarını inkişaf etdirir, diqqət və yaddaşın möhkəmlənməsinə kömək edir. Bununla yanaşı, kollektiv fəaliyyətlər iştirakçılarda sosiallaşma prosesini sürətləndirir və onların cəmiyyətə daha rahat inteqrasiya olunmasına şərait yaradır.

Əldə edilən nəticələr də görülən işlərin uğurunu təsdiqləyir. Burada yetişən istedadlı gənclər muxtar respublikada keçirilən müxtəlif tədbirlərdə iştirak edir, öz bacarıqlarını geniş auditoriya qarşısında nümayiş etdirirlər.

Bu ilin mart ayında Heydər Əliyev Sarayında 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş konsert proqramında, Novruz bayramı münasibətilə təşkil edilən tədbirdə və may ayında baş tutan "İşığa doğru" adlı inklüziv musiqili konsert proqramında məhz bu bölmənin benefisiarları çıxış edərək tamaşaçıların böyük rəğbətini qazanıblar.

Səhnədə alqışlanan hər bir çıxışın arxasında isə uzun məşqlər, böyük zəhmət və peşəkar mütəxəssislərin əməyi dayanır. Bu uğurlar göstərir ki, düzgün dəstək və qayğı göstərildikdə hər insan öz potensialını ortaya qoya bilər.

2026-cı ilin yanvar-iyun ayları ərzində musiqi terapiyası üzrə 37 benefisiara, ümumilikdə, 596 xidmət göstərilməsi də bu istiqamətdə görülən işlərin miqyasından xəbər verir.

Regional İnformasiya Mərkəzindən ayrılarkən burada keçirdiyimiz saatlar bir daha təsdiqlədi ki, insanın imkanlarını qarşısına çıxan maneələr deyil, arzuları, iradəsi və əzmi müəyyənləşdirir. Burada musiqi, sadəcə, bir sənət növü deyil, özünəinamın, ümidin və həyata bağlılığın ifadəsidir. Mərkəzin ən böyük uğuru isə insanlara öz güclərinə inanmağı öyrətmək və onların həyatına yeni bir ahəng bəxş etməkdir.

**Elnurə CƏFƏROVA**

# İxtisas seçimlərində abituriyentlər hansı məqamlara diqqət etməlidirlər?

Müasir dövrdə təhsilin qlobal əmək bazarının tələblərinə uyğunlaşdırılması və intellektual insan kapitalının formalaşdırılması dövlətlərin strateji hədəflərindən biridir. Bu zəncirin ən mühüm və həlledici halqasını isə gənclərin ixtisas seçimi mərhələsi təşkil edir. Hər bir gəncin həyatındakı bu anda verdiyi tək bir qərar növbəti onilliklərini, bəlkə də, bütün ömrünü formalaşdırır. Bəs builki ixtisas seçimlərində nələrə diqqət olunmalıdır? Mövzu ilə bağlı suallarımızı cavablandırması üçün təhsil eksperti Orxan İsayevlə söhbətləşdik. Ekspertin sözlərinə görə, ixtisas seçimində ən fundamental addım insanın öz xarakterinə və qabiliyyətinə uyğun seçim etməsidir. Bir peşə, sadəcə, populyar olduğu üçün seçilməməlidir. İkinci mərhələdə isə həmin ixtisasın hansı universitetlərdə daha keyfiyyətli tədris olunduğunu araşdırmaq lazımdır. Bunlarla yanaşı, əmək bazarının tələbatını mütəmadi izləmək vacibdir. Nəzərə almaq lazımdır ki, elm və texnikanın inkişafı ilə bağlı olaraq əmək bazarının tələbləri çox sürətlə dəyişir. Buna görə də ixtisas seçimi zamanı abituriyentlər və valideynlər operativ və çevik olmalıdırlar. Təcrübə göstərir ki, texniki səhvlər və yanlış yanaşmalar bəzən yüksək ballı tələbələrin belə kənarda qalmasına səbəb olur. Ekspertin fikrincə, ən böyük yanlışlıq keçmişin rəqəmlərinə kor-koranə inanmaqdır. Abituriyentlər daha çox əvvəlki illərin keçid ballarına baxır, bunu cari il üçün də eynilə keçərli sayırlar və ötən ilin abituriyentlərinin seçimlərini özlərinə əsas prioritet seçirlər. Digər bir ciddi problem isə terminologiyanın qarışdırılmasıdır. Bir çoxları "keçid balı" ifadəsi ilə "müsabiqə şərti" ifadələrini səhv salırlar. Elə zənn edirlər ki, müsabiqə şərti 150 bal olan bir ixtisasa elə 150 balla da qəbul olmaq mümkündür. Halbuki müsabiqə şərti, sadəcə, həmin ixtisası yazmaq hüququ verir, qəbulu zəmanət altına almır. Bu il 1-ci və 2-ci qrupların (zonaların) buraxılış imtahanları bir az çətin oldu. Bildiyimiz kimi, buraxılış imtahanları həm də qəbul imtahanının birinci mərhələsi sayılır. Bu səbəbdən ehtimal etmək olar ki, bu il Bakı şəhərində yerləşən universitetlərin bir çoxunda keçid balları düşəcək, amma bəzi region universitetlərində, əksinə, qalxma müşahidə olunacaq. Bunun üçün abituriyentlər yalnız ötən ilin keçid ballarına istinad etməsinlər, həm də builki ümumi vəziyyəti dəyərləndirsinlər.




Ekspert, həmçinin vurğulayır ki, abituriyentlərə təqdim olunan 15 xanalı ərizə forması düzgün strategiya tələb edir. Namizədlər seçdikləri ixtisasları gələcək perspektivlərinə görə sıralamalı və öz ballarına tam uyğun yerlər seçməlidirlər. Cəmi 15 yer yazmaq hüququnun olduğundan düşmə (yəni qəbul olma) ehtimalı az olan, həddindən artıq yüksək ballı ixtisasları çox yazdıqca, real olaraq qəbul ola biləcəyiniz ixtisasları siyahıdan silmək məcburiyyətində qalırsınız ki, bu da riski kritik səviyyədə artırır.

Bəzən abituriyentin topladığı bal ötən ilin keçid balından yüksək olsa da, o, universitet qapısından kənarda qala bilir. Ekspert bunun səbəbini iki mənfi amilin eyni vaxtda üst-üstə düşməsində görür: "Həm plan yerləri azaldıla bilər, həm də həmin qrupda yüksək bal toplayanların sayı arta bilər. Bu cür neqativ sürprizlərlə qarşılaşmamaq üçün abituriyent mütləq ötən ilin ballarına baxıb, öz balından xeyli aşağı olan yerləri də siyahıya daxil etməlidir. Bu qaydaya əməl olunmayanda acı mənzərə yaranır. Məsələn, ötən il 600 balı keçən 10 nəfərdən çox abituriyent məhz bu cür səhvlər ucbatından birinci turda kəsildi. Həmçinin ixtisas seçimi dövründə ən böyük psixoloji gərginliklərdən biri də valideynlərin müdaxiləsidir. Bəzən valideynlərimiz bu məsələdə yalnız öz düşüncələrini, intuisiyalarını hər şeydən üstün tuturlar və vaxtilə özlərinin reallaşdıra bilmədikləri arzuları övladlarına məcbur edirlər. Bu zaman biz abituriyentlər və valideynlərlə həmişə real təcrübələrimizi bölüşürük. Onlara əvvəlki illərdə hansı abituriyentin hansı ixtisası bitirdiyini, necə uğur qazandığını və ya tam əksinə, valideyn məcburiyyəti ilə oxuyub sonda necə peşman olduğunu konkret faktlarla göstəririk. Faktlar qarşısında valideynlər də reallığı qəbul edirlər".

Sonda ekspert əmək bazarında hazırda və yaxın gələcəkdə hansı ixtisaslara daha çox ehtiyac olduğunu qruplar üzrə detallı şəkildə təsnif etdi: "Hazırda I qrupda bulud texnologiyalarına daxil olan ixtisaslar ön plandadır. İnformasiya texnologiyaları, informasiya təhlükəsizliyi, kiber təhlükəsizlik və data analitikası ixtisasları gələcək vəd edən ən aparıcı sahələrdir. II qrupda isə beynəlxalq ticarət və logistika, maliyyə, iqtisadiyyat və turizm işinin təşkili dövlətin gələcək iqtisadi strategiyasının əsas sütunları kimi görünür və böyük tələbat var. Humanitar sahə yönümlü olan III qrup isə Dövlət və ictimai münasibətlər, Hüquqşünaslıq və İngilis dili müəllimliyi ixtisasları hələ də ən çox seçilən və aktuallığını itirməyən sahələrdir. IV qrupun tək və əvəzolunmaz lideri Tibb ixtisasıdır. Bununla yanaşı, Stomatologiya və son dövrlərdə cəmiyyətdə tələbatı kəskin artan Psixologiya ixtisasları da ən çox üstünlük verilənlər sırasındadır".

**Səmayə RƏSULOVA**

# Naxçıvan komandası "Gənc xilasedici və yanğınsöndürən" XIII ümumrespublika birinciliyində mükafatlandırılıb



Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Gənclər və İdman, Elm və Təhsil nazirliklərinin dəstəyi ilə Qəbələ şəhərində təşkil olunan "Gənc xilasedici" XII beynəlxalq yarışının və "Gənc xilasedici və yanğınsöndürən" XIII ümumrespublika birinciliyinin qaliblərinin mükafatlandırma mərasimi olub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, Qəbələ Mədəniyyət Mərkəzində baş tutan mərasimdə fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, digər rəsmilər, Vətən müharibəsi şəhidlərinin övladları və ailə üzvləri iştirak ediblər.

Beynəlxalq yarışda birinci yeri Azərbaycan, ikinci yeri Özbəkistan, üçüncü yeri Belarus komandası tutub. Ümumrespublika birinciliyində isə İsmayıllı komandası qalib gəlib. Naxçıvan komandası ikinci, Qusar komandası isə üçüncü yerə layiq görülüb.

Yarışlarda komandalar "Maneələr zolağı", "Kombinə edilmiş yanğın estafeti", "Axtarış-xilasetmə işi" mərhələlərində, həmçinin "Mənim ölkəm, mənim komandam" müsabiqəsində güclərini sınayıblar.

Qeyd edək ki, muxtar respublikanı yarışda Vətən müharibəsi iştirakçısı Abbasəli Tarverdiyevin hərbi rəhbəri olduğu Babək rayon Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbin şagirdləri təmsil ediblər.

# Bənzəri olmayan müalicə ocağı

## Duzdağ Fizioterapiya Mərkəzinin möcüzəvi təsirləri



Şəhərin gurultusundan, gündəlik qayğılardan və tozlu havasından uzaqlaşaraq Naxçıvanın simvollarından birinə – Duzdağ Fizioterapiya Mərkəzinə üz tuturuq. Bura təkcə müalicə müəssisəsi deyil, həm də minlərlə insanın sağlamlıq ümidi ilə gəldiyi bir məkandır. Mərkəzin qapısından içəri addım atan kimi zaman sanki dayanır. Fəsillərin dəyişməsindən asılı olmayaraq, burada sabit temperatur, təmiz hava və sakitlik hökm sürür. Uzun tunellər boyunca uzanan təbii duz layları bu məkana özünəməxsus gözəllik bəxş edir. Lakin buranın əsl möcüzəsi görünüşündə yox, havasındadır.

Uzun illər bronxial-astma və digər tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən insanlar üçün Duzdağ ümid ünvanına çevrilib. İlk nəfəsdəcə ağciyərlərə dolan təmiz və duz ionları ilə zəngin hava insana rahat nəfəs almağın nə qədər böyük bir nemət olduğunu xatırladır. Yeraltı dünyanın bu səssiz dəhlizlərində gəzişdikcə, buradakı şəfa möcüzəsini gözləri ilə görən həkimlərin elmi izahatlarını dinləyir, illər sonra rahat nəfəs almağın xoşbəxtliyini yaşayan insanların hekayələrinə şahidlik edirik.

Mərkəzin duz ətirli dəhlizlə-



rində irəlilədikcə buranı, sadəcə, bir müalicə yeri deyil, ikinci evləri kimi görən insanlarla qarşılaşırıq. Onlardan biri də övladlarının sağlamlığı üçün Sumqayıtdan Naxçıvana üz tutan Aytac Həsənovadır. O, Duzdağın ailələri üçün bir ümid işığı olduğunu vurğulayır: “Oğlum Fərhadın ciddi bronxial problemləri var idi, nəfəs almaqda çətinlik çəkirdi. Sırf bu müalicəyə görə artıq 3 ildir ki, Sumqayıtdan mütəmadi olaraq bura gəlirik. Duzdağ Fizioterapiya Mərkəzində keçdiyimiz seansların uşaqlara təsiri inanılmazdır. Artıq oğlumda allergik reaksiyalar qalmayıb və bizi qorxudan o boğulma halları da yaşanmır”.

Duzdağ Fizioterapiya Mərkəzinin şəfası təkcə ölkə hüdudları



ilə məhdudlaşmır, buranın sorağı bəzən qonşu ölkələrə qədər də gedib çıxır. Rusiyadan gələn Viktoriya Potyukova da övladı ilə birlikdə bu sehrli mağaranın qonaqlarındandır. İlk günləri olmasına baxmayaraq, üzündəki ümid aydınca sezilir: “Həm özümdə, həm də övladımda allergik simptomlar və nəfəs problemləri var idi. Uşaq, demək olar ki, rahat nəfəs ala bilmirdi. Həkimimizin məsləhəti və yönləndirməsi ilə Naxçıvana gəldik. Hələ ilk günlərimiz olmasına baxmayaraq, mağaranın havasının uşağa necə müsbət təsir etdiyini, nəfəsinin yüngülləşdiyini indidən hiss edə bilirik”.

Mərkəzin kitabxanasında mütaliə edən türk vətəndaşı Fehmi Haytaoğlu ilə də həmsöhbət olduq. O, Naxçıvan və mərkəz haqqında fikirlərini bizimlə bölüşdü: “Oğlumun məzuniyyət mərasimi üçün Adanadan gəlmişdik. Qərara aldıq ki, geri dönmədən öncə mütləq Naxçıvanı da gəzək. Naxçıvan çox gözəl, təmiz, səliqəli və zəngin mədəniyyətə malik tarixi bir yerdir. Duzdağ isə allergiyası və astması olanlar üçün inanılmaz dərəcədə faydalı bir məkandır. Buranı həkimlərin tövsiyə etdiyi və



insanların gecələyərək müalicə aldığı mükəmməl bir mərkəz kimi gördüm. Hətta mərkəzin daxilində bu cür kitabxana və digər xidmət sahələrinin fəaliyyəti çox incə və təqdirəlayiq bir düşüncədir”.

Duzdağın şəfalı mühiti elmi əsaslara söykənir. Duzdağ Fizioterapiya Mərkəzinin baş tibb bacısı Nuranə Mirzəyeva bildirir ki, burada tətbiq olunan speleoterapiya üsulu mağaranın təbii mikroiqliminə əsaslanır. Tənəffüs zamanı natrium-xlorid ionları və faydalı minerallarla zəngin olan bu təbii aerozollar birbaşa bronxlara və ağciyərlərə nüfuz edir, tənəffüs yollarının selikli qişasını reabilitasiya edir, yəni təmizləyir. Bu, tamamilə qeyri-medikamentoz (dərmansız) və yüksək effektivliyə malik müalicə üsuludur. Mütəxəssisin sözlərinə görə, speleoterapiya bronxial-astma (infeksion-allergik və atopik formaları), kəskin və xroniki bronxitlər, predastma, allergik rinit, allergik faringit, allergik bronxit, pollinoz, tonzillit, həmçinin allergik mənşəli dəri xəstəlikləri – atopik dermatit və övrə kimi xəstəliklərin müalicə-



sində yüksək effektivlik göstərir. Mərkəzimizə daxil olan hər bir pasiyent ilkin olaraq həkim tərəfindən ciddi şəkildə müayinə olunur. Müalicənin effektivliyini qorumaq üçün bəzi əks göstərişləri də nəzərə almaq lazımdır. Seansların müddəti və saatı yalnız həkim tərəfindən fərdi qaydada, minimum 10, maksimum 21 gün olmaqla təyin edilir.



3 seans ilə fəaliyyət göstəririk. Mərkəzdə müalicə ilə yanaşı, pasiyentlərin və onları müşayiət edən şəxslərin asudə vaxtının səmərəli təşkili üçün də şərait yaradılıb. Burada fəaliyyət göstərən kitabxanada 300-dən artıq dünya və Azərbaycan ədəbiyyatı nümunəsi oxucuların istifadəsinə verilib. Həmçinin kitabxanada təbii duzdan hazırlanan suvenir kitab qonaqlar tərəfindən maraqla qarşılanır.





Duzdağ Fizioterapiya Mərkəzi bu gün təkcə Naxçıvanın deyil, Azərbaycanın səhiyyə və sağlamlıq turizminin tanınan ünvanlarından birinə çevrilib. Təbii müalicə imkanları, peşəkar tibbi xidmət və rahat şərait burada müalicə alanların etimadını ildən-ilə artırır.



Mərkəzdən ayrılarkən dəhlizlərdə sakit addımlarla seansa yollanan insanlar, müalicəsini başa vurub ümidlə geri dönən ailələr bir həqiqəti bir daha təsdiqləyir: bəzən təbiətin bəxş etdiyi imkanlar insan sağlamlığının bərpasında ən etibarlı dayaqlardan olur.



Duzdağın minilliklərin qoynundan gələn şəfalı nəfəsi də bu gün yüzlərlə insana sağlam həyata qovuşmaq ümidi bəxş etməyə davam edir.



**Səmayə RƏSULOVA**



# Mən memar olsaydım: Əcəmi Naxçıvaninin izi ilə

**Ölkəmizdə qədim tariximizin yadigarı olan bir çox tarixi-memarlıq abidələri keçmişimizin şahidi kimi günümüzədək gəlib çıxmışdır. Əcdadlarımızın bu qədim yadigarlarına diqqət və qayğını daha da artırmaq məqsədilə ölkə Prezidenti cənab İlham Əliyev 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etmişdir. Ölkə başçısı, eyni zamanda Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyinin qeyd olunması və Naxçıvan şəhərində abidəsinin ucaldılması haqqında Sərəncam imzalamışdır. Bəzən insan yalnız gördüklərini deyil, hiss etdiklərini də yaratmaq istəyir. Mən bir rəssam olaraq rənglərlə danışmağı öyrəndim, amma düşünürəm ki, əgər memar olsaydım, bu rəngləri daşlara köçürərdim. Əcəmi Naxçıvani kimi dahilərin izi ilə gedərək daşda donan ruhu rənglə yaşadar, səssiz divarlara həyat verərdim. Mənim üçün memarlıq, sadəcə, qurmaq deyil, hissləri əbədiləşdirməkdir həm də. Mən rəngkaram. Dünyaya xətt, rəng və işıq-kölgə vasitəsilə baxıram. Fırçamın ucundan çıxan hər bir zərbə mənim üçün, sadəcə, boya deyil, bir hissin, bir düşüncənin ifadəsidir. Bu baxış məni sənətin digər qollarına, xüsusilə də memarlığa fərqli gözlə yanaşmağa vadar edir. Memarlıq mənim üçün donmuş musiqi, daşlaşmış poeziyadır. Əgər mən memar olsaydım, ilhamımı, ilk növbədə, doğulduğum torpağın dahisi, daşa ruh verən sənətkar Əcəmi Əbubəkr oğlu Naxçıvanidən alardım. Onun əsərləri qarşısında dayananda başa düşürsən ki, memarlıq yalnız texniki hesablama, divar və günbəz deyil. Memarlıq fəlsəfədir, dünyagörüşüdür, əbədiyyətə göndərilən mesajdır.**



### Dövrün və dahinin portreti: Əcəmi Əbubəkr oğlu Naxçıvani

XII əsr Azərbaycan intibahının qızıl dövrüdür. Məhz bu dövrdə, Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin və onun xanımı Möminə xatunun himayəsi ilə Naxçıvanda böyük bir memarlıq məktəbi formalaşır. Bu məktəbin zirvəsində isə bir ad dayanır: Əcəmi Əbubəkr oğlu Naxçıvani. Təəssüf ki, orta əsr memarları çox vaxt adsız qəhrəmanlar kimi tarixdə itib-batırlar. Lakin Əcəmi Əbubəkr oğlu bu taleyi yaşamadı. Bunun iki səbəbi var. Birincisi, yaratdığı əsərlərin misilsiz bədii və konstruktiv keyfiyyəti. İkincisi isə özünə və sənətinə olan hörməti. O, yaratdığı bir çox qiymətli abidənin, xüsusilə iki şah əsərin – Yusif Küseyir oğlu və Möminə xatun türbələrinin üzərinə qürurla imzasını həkk etmişdir: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir". Bu sadə cümlə, əslində, böyük bir bəyanatdır. Sənətkar öz əsərinə imza atmaqla onun üçün məsuliyyət daşıdığını, onu gələcək nəsillərə əmanət etdiyini bildirir.

Əcəmi Naxçıvani Azərbaycan memarlıq tarixində yeni bir üslubun, Naxçıvan-Marağa memarlıq məktəbinin banisidir. Bu üslubun əsas xüsusiyyətləri qülləvari türbələr, zəngin həndəsi naxışlar, kərpic hörgüsünün virtuoz səviyyəyə çatdırılması və kaşı bəzəklərindən məharətlə istifadə olunmasıdır. Lakin Əcəminin dühası bu texniki məqamlardan daha dərindədir. O, formaya məna yükləməyi, daşı danışdırmağı bacarırdı. Onun üçün hər naxış bir ayə, hər günbəz səmaya ucalan bir dua idi.

### Daş üzərində çəkilən rəsm: Möminə xatun türbəsi

Əcəminin sənət fəlsəfəsini anlamaq üçün onun şah əsəri olan Möminə xatun türbəsinə rəssam gözü ilə baxmaq kifayətdir. İlk baxışdan onguşəli qülləvari quruluşu ilə diqqəti cəlb edir. Lakin onun əsl möcüzəsi detallardadır. Türbənin səthini bəzəyən həndəsi ornamentlər sanki sonsuzluğa doğru uzanan bir musiqini xatırladır. Kərpiclərin müxtəlif vəziyyətlərdə düzülməsi ilə yaradılan işıq-kölgə oyunu səthə dinamika verir. Günəşin hərəkətindən asılı olaraq türbənin görünüşü dəyişir. Səhər bir cür, günorta başqa cür, axşam isə tamamilə fərqli görünür. Bu, donmuş bir daş parçası deyil, yaşayan, nəfəs alan bir orqanizmdir. Səth boyunca uzanan həndəsi naxışlar təkrarlanan fırça zərbələrini xatırladır. Hər bir kərpic, hər bir oyma naxış bütöv bir kompozisiyanın elementidir. Burada təsadüfi heç nə yoxdur. Hər naxışın bir nəfəsi, hər səthin bir sükutu var. Bu, miniatür sənətində gördüyümüz dəqiqlik və harmoniyadır: detallarda bütövü görmək, xırda elementlərlə böyük fəlsəfə yaratmaq. Türbənin üzərindəki kufi xətti ilə yazılmış kitabələr isə kompozisiyanı tamamlayır. Mavi kaşılarla işlənmiş bu yazılar qırmızı kərpic fonunda bir tablo kimi seçilir. Bu, rəngkarlıqda istifadə edilən kontrast prinsipidir. İsti və soyuq rənglərin, düz xətt ilə əyri xəttin, dolu ilə boşluğun vəhdəti. Əcəmi rəngdən az istifadə edib, lakin istifadə etdiyi hər rəngi məna yüklü edib. Mavi səmanın, əbədiyyətin rəmzidir. Kərpicin qırmızısı isə torpağın, həyatın rəngidir. Bu iki rəngin qovuşuğu ilə Əcəmi yerlə göyün vəhdətini yaradır.

### Sükutun memarlığı: Yusif Küseyir oğlu türbəsi

Əcəminin yaratdığı çoxsaylı əsərlərdən biri də günümüzə qədər gəlib çatmış Yusif Küseyir oğlu türbəsidir. Bu səkkizguşəli türbə Möminə xatun türbəsi ilə müqayisədə daha sadə və təvazökardır. Lakin bu sadəlikdə böyük bir dərinlik gizlənir. Əgər Möminə xatun türbəsi bir dastandırsa, Yusif Küseyir oğlu türbəsi bir rübai, bir fəlsəfi düşüncədir. Burada bəzək ünsürləri daha azdır. Əsas diqqət formanın saflığına, proporsiyaların mükəmməlliyinə yönəlib. Türbənin tillərindəki sütunçalar və yuxarı hissədəki naxış qurşağı abidəyə zəriflik verir. Bu abidəyə baxanda qələmlə çəkilmiş incə eskizlər göz önündə canlanır. Sanki Əcəmi burada tişəni bir kənara qoyub, qələmlə işləyib. Xətlərin dəqiqliyi, formaların lakonikliyi heyrətamizdir. Bu türbə insana sükutun gücünü öyrədir. Hər zaman qışqırmağa, özünü göstərməyə ehtiyac yoxdur. Bəzən bir sükut, bir boşluq cildcild kitabdan daha çox məna ifadə edə bilər. Əcəmi bu əsəri ilə sübut edir ki, o həm təmtəraqlı, həm də minimalist üslubda şah əsərlər yaratmağa qadir bir sənətkardır. Bu iki əsərdən çıxarılan dərs unudulmazdır: yerinə görə danışmaq, yerinə görə susmaq lazımdır. Memarlıq da insan kimidir – onun da danışan vaxtı, susan vaxtı olmalıdır.

### Mən memar olsaydım: Əcəminin prinsipləri ilə müasirlik

Memar Əcəminin izi ilə getmək köhnəni təkrarlamaq deyil. Əksinə, onun fəlsəfəsini anlayıb müasir materiallarla, müasir texnologiyalarla yeni bir dil yaratmaqdır. Əcəmidən "məna" dərsini almaq lazımdır. Tikilən hər bir bina funksionaldır, lakin ruhsuzdur. Əcəmi isə hər daşa bir məna yükləyirdi.

Miniatür sənətinin əsas prinsipi ən xırda detala qədər dəqiqlik və bütün elementlər arasında harmoniya yaratmaqdır. Əcəminin əsərlərində də bu var. Nəhəng bir türbənin üzərindəki xırda bir kərpic belə ümumi ahəngi pozmur, əksinə, tamamlayır. Bu prinsip unudulmazdır. Qapının dəstəyindən tutmuş tavandakı naxışa qədər hər bir detal bütövün bir parçasıdır. Çünki böyük sənət xırda detallardan doğulur.

"Şəhərsalma və Memarlıq İli"



### Rəng, işıq və daxili azadlıq: zirvə anlayışı

Zirvə yalnız əldə olunan nəticə deyil, zirvə insanın özünü tapdığı, sevdiyi işi gördüyü və daxili azadlıq hiss etdiyi məqamdır. Bu fikir memarlığa da birbaşa aiddir. Əcəmi üçün zirvə, yəqin ki, Möminə xatun türbəsinin inşasını başa vurduğu an deyildi. Zirvə o idi ki, hər səhər gün doğanda əsərinin üzərində oynayan işığı görürdü. Zirvə o idi ki, yaratdığı naxışların əsrlər sonra da insanları heyran edəcəyini bilirdi. Zirvə daxili azadlıq idi – heç bir qanuna, heç bir şablona sığmadan, ürəyinin hökmü ilə daşa forma verməK azadlığı.

Sifarişçinin tələbləri, texniki normalar, büdcə – bunların hamısı vacibdir. Lakin bunların əsirinə çevrilsən, sənətkarlıq ölər. Əcəmi Atabəylər kimi qüdrətli bir dövlətin sifarişlərini yerinə yetirirdi, amma öz dəst-xətini, öz azadlığını qoruyub saxlamağı bacardı.

### Daşa yazılmış vəsiyyət

Əcəmi Əbubəkr oğlu Naxçıvani bizə, sadəcə, iki türbə miras qoymadı. O bizə bir məktəb, bir fəlsəfə, bir vəsiyyət miras qoydu. Onun vəsiyyəti daşın üzərində həkk olunub: "Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar". Bu iki misra hər bir sənətkar üçün, xüsusilə də memar üçün həyat kredosu olmalıdır. Biz bu dünyada müvəqqətiyik. Bizim dərdlərimiz, sevinclərimiz, arzularımız bizimlə birgə torpağa qarışacaq. Lakin yaratdığımız əsərlər qalacaq. Onlar bizim səsimiz, bizim nəfəsimiz, bizim ruhumuz olacaq. 900 il əvvəl Əcəminin yonduğu daş bu gün onunla bizim aramızda körpü yaradır. Biz onunla danışırıq, o bizimlə. Çünki əsl memarlıq yalnız bu günü deyil, gələcəyi də düşünməkdir. Əsl memarlıq sabahın adamlarına "Mən də var idim" deməkdir. Əcəmi Naxçıvaninin izində getmək – keçmişlə gələcək arasında körpü olmaq deməkdir, ulu keçmişimizdən xəbər verən tarixi abidələrə sonsuz sevgi ilə baxıb, onlardan güc alaraq yeni zirvələrə can atmaq deməkdir.

Memarlıq irsi, sadəcə, daşdan ucaldılmış abidələr deyil, xalqın yaddaşı, kimliyi və ruhudur. Əcəminin yaratdığı əsərlər isə bizə sübut edir ki, sənət zamanın fövqündə dayanır və onu yaşatmaq insanlığın borcudur. "Əcəminin izi ilə: qur, qoru və gələcəyə ötür".

**Ülviyyə QƏHRƏMANOVA**
*Naxçıvan Dövlət Universitetinin tələbəsi*



## Məktəblidən beynəlxalq kibertəhlükəsizlik olimpiadasında ilk uğur



Xəbər verdiyimiz kimi, 27 iyun-2 iyul tarixlərdə Tunisdə keçirilən Beynəlxalq Kibertəhlükəsizlik Olimpiadasında Azərbaycanı təmsil edən komandanın üzvü, Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin XI sinif məzunu Oruc Cabbarlı həvəsləndirici mükafata layiq görülüb. Bununla da o, Naxçıvan Muxtar Respublikası məktəbliləri arasında beynəlxalq olimpiadalarda ilk uğura imza atıb.

Gənc olimpiadaçı ilə həmsöhbət olaraq qazandığı nailiyyəti və gələcək hədəfləri barədə danışdıq.

Oruc Cabbarlı bildirdi ki, informasiya texnologiyalarına marağı hələ uşaqlıq illərindən formalaşıb. Əvvəlcə kompüterə olan həvəsi onu bu sahəyə yönəldib, sonradan isə kibertəhlükəsizlik və proqramlaşdırma dünyasının geniş imkanları marağını daha da artırıb. Məhz bu maraq onu daim yeni biliklər öyrənməyə, öz üzərində çalışmağa sövq edib.

Onun sözlərinə görə, uğur qazanmasında ailəsinin dəstəyi mühüm rol oynayıb. Hər zaman mənəvi dəstək görməsi qarşısına qoyduğu məqsədlərə daha inamla addımlamasına kömək edib.

Gənc olimpiadaçı qeyd etdi ki, Beynəlxalq Kibertəhlükəsizlik Olimpiadasına seçim prosesi kifayət qədər məsuliyyətli olub. Yerli və xarici mütəxəssislərin iştirakı ilə keçirilən iki mərhələli seçimdə uğur qazandıqdan sonra Azərbaycan komandasının tərkibinə daxil olub. Hazırlıq dövründə, əsasən, fərdi şəkildə çalışaraq bilik və bacarıqlarını daha da təkmilləşdirib.

Müsahibim hesab edir ki, beynəlxalq yarışların əsas üstünlüyü yalnız medal qazanmaq deyil. Müxtəlif ölkələrdən olan istedadlı gənclərlə tanış olmaq, fərqli yanaşmalarla tanışlıq və peşəkar mühitdə təcrübə toplamaq onun üçün ən dəyərli qazanc olub. Bu baxımdan, Tunisdə keçirilən olimpiada həm biliklərini sınamaq, həm də yeni təcrübələr əldə etmək baxımından yaddaqalan mərhələyə çevrilib.

Yarışın nəticəsini dəyərləndirən müsahibimiz bildirir ki, həvəsləndirici mükafat sevindirici olsa da, bürünc medalı cəmi bir pillə fərqlə əldən verməsi onda daha böyük hədəflər üçün motivasiya yaradıb. Bu nailiyyətin Naxçıvan üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayan Oruc Cabbarlı hesab edir ki, beynəlxalq olimpiadalarda qazanılan ilk uğur bölgədə təhsil alan digər məktəblilər üçün də stimul olacaq və onların bu cür yarışlara marağını artıracaq.

Gənc olimpiadaçının uğur yolu isə təkcə bu yarışla məhdudlaşmır. O, ilk nailiyyətini hələ 6-cı sinifdə Respublika Fənn Müsabiqəsində informatika fənni üzrə gümüş medal qazanmaqla əldə edib. Sonrakı ildə biologiya üzrə bürünc medal qazanıb, müxtəlif beynəlxalq riyaziyyat olimpiadalarında – AMO və SASMO-da mükafatçılar sırasında yer alıb. 9-cu sinifdə Respublika Fənn Olimpiadasının informatika fənni üzrə final mərhələsində iştirak edib. Həmin il attestat imtahanında 270 bal toplayaraq fərqlənmə attestatına layiq görülüb. 10-cu sinifdə isə Respublika Fənn Olimpiadasının informatika fənni üzrə Naxçıvan Muxtar Respublikasında ilk dəfə III yerə layiq görülüb. 11-ci sinfin buraxılış imtahanında isə 243 bal toplayıb.



Bundan başqa, RFO 2026, IDDA Cup və PASHA Bank Cup VII yarışlarının finalçısı olub. “Zəkaların mübarizəsi” olimpiadasında komandası ilə uğurlu nəticələr əldə edib, STEAM və robototexnika yarışlarında da fəal iştirak edərək müxtəlif nailiyyətlər qazanıb.

Oruc Cabbarlı deyir ki, hazırlıq prosesində ən böyük çətinlik saatlarla kompüter qarşısında işləmək olsa da, seçdiyi sahəyə olan marağı bu yorğunluğu arxa plana keçirirdi. Gündə orta hesabla 4-5 saat hazırlıq keçməsi isə qazandığı nəticələrin təsadüfi olmadığını göstərir.

Hazırda kibertəhlükəsizlik və süni intellekt istiqamətində biliklərini daha da artıran gənc gələcəkdə də məhz bu sahədə təhsil almağı, beynəlxalq yarışlarda Azərbaycanı uğurla təmsil etməyi qarşısına məqsəd qoyub.

Sonda isə yaşıdlarına müraciət edən Oruc Cabbarlı bildirib ki, uğurun əsas sirri davamlı öyrənmək, marağı qorumaq və əldə olunan bilikləri praktikada tətbiq etməkdir. Onun fikrincə, müasir dövrdə internet və süni intellekt öyrənmək üçün böyük imkanlar yaradır. Lakin bu imkanlardan düzgün istifadə etmək, hazır cavab axtarmaq əvəzinə, bilik qazanmağa çalışmaq daha vacibdir.

✍ **Zəhra VƏLİYEVA**

## OXUCULARIN NƏZƏRİNƏ!
### “ŞƏRQ QAPISI” qəzetinə abunə yazılışı davam edir

Abunə yazılışı redaksiyaya müraciət etməklə aparılır.

**1 illik - 112** (yüz on iki) **manat**
**6 aylıq - 56** (əlli altı) **manat**
**3 aylıq - 28** (iyirmi səkkiz) **manat**
**1 aylıq - 9** (doqquz) **manat**

**Hörmətli oxucular!**

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel: 544-52-52)** zəng vura bilərsiniz.


100 ilin qəzeti
ŞƏRQ QAPISI
**14 iyuldan başlanan tarix:**
*rifaha, quruculuğa, müstəqilliyə aparan yol*
**Prezident İlham ƏLİYEV:**
“Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur...
Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası

### Yer təkindən istifadə ilə bağlı 20 avqust 2026-cı il tarixdə saat $11^{00}$-da keçiriləcək hərracın elanı
### Hərrac auksion formasında keçiriləcəkdir

*Ordubad rayonu “Kotam” qırmadaş yatağı*

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın mərkəz koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10%) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Kotam | LOT-1 | 497 000 m3 | 2,2 ha | qırmadaş | 2 ilədək | X-592697.54 Y-4305129.55 | 49 700 | 4970 | 810 |

Hərracın keçiriləcəyi ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6 (Hərracların Təşkili Mərkəzi PHŞ-nin inzibati binası).

Qeyd: Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10% miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42).

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);
2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;
3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (LOT üzrə) müəyyən edilir:
– ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrədək – 540,00 (beş yüz qırx) manat;
– ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrdən 500 000 (beş yüz min) kubmetrədək – 810,00 (səkkiz yüz on) manat;
– ehtiyat həcmi 500 000 (beş yüz min) kubmetrdən yuxarı olduqda – 1080,0 (bir min səksən) manat.
4. “Vergiödəyicisinin vergi borcu barədə” arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);
5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);
6. İddiaçının tam adı, hüquqi statusu: hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN-şəhadətnaməsi və dövlət reyestrdən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN-şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);
7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağmədən mühəndisi və ya 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;
8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 12 avqust 2026-cı il saat $18^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər nazirliyə “Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydalarına” uyğun ərizə (bundan sonra “ərizə”) təqdim edir.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər hər LOT üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 **(Əlaqələndirici şəxs: Ramiz Rəsulov, telefon: (036) 545-34-85, 050-723-85-25 ) ünvanından ala bilərlər.**

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 2 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10% miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

### *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 20 may 2026-cı il tarixli, 20 nömrəli Qərarına əsasən Naxçıvan Muxtar Respublikası Turizm Departamenti ləğv edilmişdir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 40 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər.

Ləğvedici: Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi.

***Ünvan: Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 39***
***Əlaqə telefonu: 036-545-69-70, 036-545-70-33***
***Email: ndvx@taxes.gov.az***

### *İtmişdir*

Naxçıvan şəhəri, Mircəfər Mirişli küçəsi, ev 24 ünvanında Məmmədova Anaxanım Əhməd qızının adına olan 104013004033-10301 reyestr nömrəli, 01.05.2023-cü il qeydiyyat tarixli çıxarış və 20108 inventar nömrəli fərdi yaşayış evinin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Orucəliyev Hüseyn Nəriman oğlunun adına olan Naxçıvan şəhəri, Nizami küçəsi 41-də olan qeyri-yaşayış binasının 1/377 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Sirab kənd sakini Həziyeva Firəngiz Həzi qızının adına olan JN-196$^{A}$ nömrəli, 10300038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Aralıq kəndində yaşamış Məmmədov Məmməd Abbas oğluna məxsus JN-509$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Paşayev Nəsimi Məmməd oğluna məxsus JN-296$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ərəbyengicə kənd sakini Qoçəliyev Hüseyn Ağoş oğluna məxsus JN-65 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Quliyev Zahir Abbas oğlunun adına verilmiş JN-38$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: RƏMZİ TAHİRLİ
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 141
Nömrəyə məsul: Ramiyə Əkbərova, Səmayə Rəsulova
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.